# Xalq qəzeti

Xalqın qəzeti!

№ 193 (30309) 8 sentyabr 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az


**Günün sözü**

**Prezident İlham Əliyev:**

Bu gün dünya miqyasında Türk Dövlətləri Təşkilatı öz layiqli yerini tuta bilibdir. Ancaq bundan sonra da fəal çalışmalıyıq ki, bizim təsir imkanlarımız daha da geniş olsun. Əminəm ki, yaxın gələcəkdə bizim təşkilatımızın dünyadakı mövqeyi və rolu daha da artacaqdır.

# Türk dünyası dostluq və qardaşlıq ailəsidir

## *Prezident İlham Əliyev türk dövlətlərinin Bakıda keçirilən tədbirlərdə iştirak edən nazirlərini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi dövlətlərinin təbii fəlakət və fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci görüşünün və "Bakı-2023" beynəlxalq təliminin iştirakçıları - Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüraliyev, Türkiyənin daxili işlər naziri Əli Yerlikaya, Qazaxıstanın fövqəladə hallar naziri Sırım Şaripxanov, Qırğızıstanın fövqəladə hallar naziri Boobek Ajikeev, Özbəkistanın fövqəladə hallar naziri Abdulla Kuldaşev və Şimali Kiprin daxili işlər naziri Dursun Oğuzu qəbul edib.**

**Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:**

– Sizi səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz.

Bu gün Bakıda Türk Dövlətləri Təşkilatının fövqəladə hallar nazirlərinin iclası öz işinə başlayır. Bu, çox önəmli hadisədir. Əminəm ki, iclas çox yaxşı keçəcək, nəticələr də çox uğurlu olacaq.

Bildiyiniz kimi, iki aydan sonra türk dövlətlərinin başçıları səviyyəsində Zirvə görüşü keçiriləcəkdir. İndi Zirvə görüşünə böyük hazırlıq işləri gedir, o cümlədən fövqəladə halların idarə edilməsi istiqamətində də işlər gedir. Bildiyimə görə, iclasda, o cümlədən qarşılıqlı yardım haqqında sazişin hazırlanması da nəzərdə tutulmuşdur. Buna böyük ehtiyac var. Çünki hamımız yaxşı bilirik ki, son vaxtlar bölgəmizdə və bütövlükdə dünyada fövqəladə halların sayı kəskin artıb. Bunun bir çox səbəbləri var. Ancaq fakt odur ki, bu gün misli görünməmiş ölçüdə daşqınlar, zəlzələlər, yanğınlar adi hala çevrilib. Fürsətdən istifadə edərək, bir daha qardaş Türkiyəyə dəhşətli zəlzələdə həlak olanların xatirəsini hörmətlə anaraq, bir daha başsağlığı vermək istəyirəm. Bildiyiniz kimi, Azərbaycan ilk saatlardan, ilk dəqiqələrdən bu dəhşətli zəlzələ ilə bağlı öz səylərini göstərmişdir. Hazırda Qəhrəmanmaraş şəhərində Azərbaycan dövləti tərəfindən inşa ediləcək şəhərciyin son parametrləri müəyyən edilir və yaxın zamanlarda biz inşaata başlayacağıq.

**(ardı 2-ci səhifədə)**

**Xarici işlər naziri Ceyhun Bayramovun Azərbaycan Dövlət İnformasiya Agentliyinə (AZƏRTAC) və Macarıstanın "Madyar Demokrata" nəşrinə müsahibəsində Zəngəzur dəhlizi ilə bağlı səsləndirdiyi fikirlər Ermənistanda ciddi müzakirə predmetinə çevrilməkdədir. Əlbəttə, mövzu ətrafındakı yanaşmalarda, ilk növbədə, təşviş ovqatı duyulmaqdadır. Hiss olunur ki, erməni siyasi istableşmenti cənab Bayramovun söylədiklərini soyuq başla qiymətləndirmək iqtidarında deyil. Bu, məsələnin birinci tərəfidir və mövzuya yer ayıracağıq. Məsələnin digər tərəfləri də var ki, yazımızda onlara da toxunmaq niyyətindəyik.**

# Bakının "B" planı, Zəngəzur dəhlizi və Ermənistan üçün dalan

## 30 illik təcrid, görünür, İrəvana dərs olmayıb?




Bəli, nəticə hasil olur ki, erməni dairələri ölkəmizin XİN rəhbərinin dediklərini Bakının demarşı olaraq dəyərləndirirlər və mövcud xüsusda vurğu ancaq hay-küy salmağın üzərinə qoyulur. Təxminən belə: baxın, Azərbaycan Ermənistan ərazisinin işğalına çalışır və sair. Arada soyqırımı ritorikasını da gündəmə gətirənlər tapılır. Təşvişə gəldikdə isə ermənilər Azərbaycanın nəzərdə tutduğunu həyata keçirmək əzmini anladıqlarını, istər-istəməz büruzə verirlər və sanki özlərini həmin reallığa hazırlayırlarmış kimi davranırlar. Mənzərə, obrazlı desək, qorxaq itin quyruğunu bulayaraq hürməsinə bənzəyir.

*(ardı 3-cü səhifədə)*

# Ermənistan vəziyyəti gərginləşdirir



**Son vaxtlar Ermənistandan səslənən bəzi bəyanatlar bu ölkənin 44 günlük Vətən müharibəsindən dərs almadığını göstərir. Əgər əvvəllər təcavüzkar ölkədə Qarabağ klanı, daşnaklar və digər marginal qruplar radikal-revanşist bəyanatlar verirdilərsə, hazırda baş nazir Nikol Paşinyan da onların sırasına qoşulub.**

Güman etmək olar ki, N.Paşinyan bunu özbaşına etmir. Onu revanşist bəyanatlar verməyə təhrik edən bir sıra dövlətlər və qüvvələr var. Fikir versək, görərik ki, son vaxtlar Paşinyanın çıxışlarının tonunda, üslubunda xeyli dəyişiklik var. Əgər Paşinyan cari il mayın 23-də keçirdiyi mətbuat konfransında Azərbaycanın 86,6 min kvadratkilometrlik ərazi bütövlüyünü tanıdığını, bura Qarabağın da daxil olduğunu bəyan etmişdisə, bugünlərdə fikrinə redaktələr eləyir. Sentyabrın 2-də Azərbaycan torpaqlarında qondarma "dqr"in yaradılmasnın 32-ci ildönümü münasibətilə yaydığı müraciətdə Hayastan baş naziri deyib: "Bir daha qeyd etmək istərdim ki, Dağlıq Qarabağ ermənilərinin təhlükəsizliyi və hüquqlarının müdafiəsi məsələləri dönməz şəkildə həll olunmayana qədər, Dağlıq Qarabağın ərazi qurumu kimi mövcud olmaması və Dağlıq Qarabağ probleminin həlli ilə bağlı bütün bəyanatlar əsassızdır". Göründüyü kimi, Paşinyanın bu bəyanatı əvvəlkilərdən köklü şəkildə fərqlənir. O, bununla regional sabitliyə xələl gətirən, populist siyasətçiyə xas yanaşma sərgiləyir. Yeri gəlmişkən, Paşinyanın müraciətinin adının bir il ərzində xeyli dəyişməsi də diqqətdən yayınmır. Belə ki, onun builki müraciəti "Dağlıq Qarabağın müstəqillik bəyannaməsinin qəbul edilməsi münasibətilə" adlanıb. 2022-ci il sentyabrın 2-də isə Paşinyanın təbriki "Artsax respublikasının elan edilməsinin 31-ci ildönümü münasibətilə" başlıqlı idi.

*(ardı 4-cü səhifədə)*



# Separatçılar yeni "qlavar" axtarırlar

**Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan və 1990-cı illərin əvvəllərində ölkəmizdə mərkəzi hakimiyyətin zəifliyindən istifadə edərək separatçı rejim yaradan şəxslər ciddi vurnuxma və çaşqınlıq içərisindədirlər.**

Obrazlı şəkildə onlar başlarını itiriblər, desək, yəqin ki, səhv etmərik. Bunun ən bariz nümunəsi qondarma rejimin "qlavar"ı Arayik Arutyunyanın sentyabrın 1-də "istefa" verməsi oldu. Onun "istefa"sı Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı Zəfərlə, müharibədən sonrakı dövrdə əldə etdiyi hərbi-siyasi uğurlarla birmənalı şəkildə bağlıdır. Təkcə bunu qeyd etmək lazımdır ki, separatçı rejimin mövcud olduğu 32 il ərzində onun başçılarından heç biri "istefa" verməmişdilər. İstər Robert Koçaryan, istər Arkadi Qukasyan, istərsə də Bako Saakyanın bioqrafiyasında "istefa"nın izi-tozu da yoxdur. A.Arutyunyanın "istefa"sı isə Azərbaycanın regionda yaratdığı yeni geosiyasi reallıqların ifadəsidir.

*(ardı 4-cü səhifədə)*

# Ölkəmiz regional nəqliyyat qovşağıdır



**Bu il sentyabr ayının 20-21-də Bakıda "Black and Caspian Freight" forumu keçiriləcək. Belə bir mühüm tədbirin reallaşması isə, şübhəsiz ki, Azərbaycanın regionda beynəlxalq nəqliyyat dəhlizləri üzərində mühüm ticarət, tranzit mərkəzinə çevrilməsini bir daha təsdiqləyir.**

*(ardı 7-ci səhifədə)*

# "Qala" milli yaddaş yuvasıdır

**Kino təkcə kadrlar və filmlər məcmusu deyil. O, özü ilə milli yaddaşı təmsil edir. Lentdən yaddaşımıza köçənlər illər uzunu bizi düşündürə bilər. Müstəqillik illərində çəkilən belə ekran işlərindən biri də Ramiz Rövşənin ssenari müəllifi, Şamil Nəcəfzadənin rejissoru olduğu "Qala" filmidir. Film 2008-ci ildə ekranlaşdırılıb.**

*(ardı 10-cu səhifədə)*



# 25 ailənin də Füzuli həsrəti bitdi

**Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir.**



Dünən növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu Park-3" yaşayış kompleksindən rayona yola salınıb. Bununla Füzuli şəhərinə daha 25 ailə – 102 nəfər köçürülüb.

*(ardı 3-cü səhifədə)*

# Türk dünyası dostluq və qardaşlıq ailəsidir




**(əvvəli 1-ci səhifədə)**

Azərbaycanın bu istiqamətdə təcrübəsi kifayət qədər böyükdür. Son illər ərzində maddi-texniki bazamızın möhkəmləndirilməsi istiqamətində işlər aparılıb, xilasedicilərin peşəkarlığı artıb. Bütövlükdə bizim müxtəlif bölgələrdə, o cümlədən Türk dünyasını birləşdirən ölkələrdə apardığımız xilasedici missiyalarımız əyani şəkildə bizim imkanlarımızı və niyyətimizi göstərir. Biz hər zaman bir-birimizin yanında olmalıyıq, Türk Dövlətləri Təşkilatının inkişafı ilə bağlı bütün üzv ölkələr öz dəyərli töhfələrini verirlər, o cümlədən Azərbaycan. Azərbaycan bütün dövrlərdə bu təşkilatın güclənməsinə hər zaman öz dəstəyini əsirgəməmişdir və bizim xarici siyasət prioritetləri arasında təşkilata üzv ölkələrlə əlaqələr birinci yer tutur. Bunu mən Prezident kimi dəfələrlə bəyan etmişəm, eyni zamanda, biz bunu əməli işlərdə də göstərmişik.

Türk dünyası böyük bir ailədir və şadam ki, son illər ərzində bütün üzv və müşahidəçi ölkələr tərəfindən təşkilata böyük dəstək göstərilir. Təbii ki, növbəti illərdə də bu dəstək göstərilməlidir. Bu gün dünya miqyasında Türk Dövlətləri Təşkilatı öz layiqli yerini tuta bilibdir. Ancaq bundan sonra da fəal çalışmalıyıq ki, bizim təsir imkanlarımız daha da geniş olsun. Burada, əlbəttə ki, həm qarşılıqlı yardım, eyni zamanda, iqtisadi əlaqələrin gücləndirilməsi, siyasi müstəvidə daimi koordinasiya və məsləhətləşmələrin aparılması, təhlükəsizlik sahəsində qarşılıqlı yardım, yəni, bütün bunlar önəmli amillərdir və bizim birliyimizi daha da gücləndirəcək. Əminəm ki, yaxın gələcəkdə bizim təşkilatımızın dünyadakı mövqeyi və rolu daha da artacaqdır.

Bir daha demək istəyirəm ki, Azərbaycan üçün türk dövlətləri ilə əlaqələr xarici siyasətdə birinci dərəcəli vəzifədir. Təsadüfi deyil ki, son bir neçə il ərzində mənim Təşkilata üzv olan ölkələrə çoxsaylı səfərlərim həyata keçirilmişdir. Təşkilata üzv ölkələrin dövlət və hökumət başçılarının da Azərbaycana bir çox səfərləri həyata keçirilmişdir və bu il də bu səfərlər nəzərdə tutulur. Yəni, bu, bir daha onu göstərir ki, biz düzgün yoldayıq.

Bu gün bizim aramızda ilk dəfə olaraq Şimali Kiprin nümayəndəsi də iştirak edir. Şimali Kipr türk qardaşlarımızı xüsusilə salamlamaq istəyirəm. Nazir burada müşahidəçi kimi, amma eyni zamanda, öz bayrağı ilə təmsil olunur. Təbii ki, Şimali Kiprin bayrağı da bizim tədbirdə dalğalanmalıdır və dalğalanacaqdır. Azərbaycan bütün Türk dünyasında birləşən qardaşlarımızın hər zaman yanında olubdur və çox sevindirici haldır ki, son Zirvə görüşündə Şimali Kipr Türk Dövlətləri Təşkilatına müşahidəçi seçilmişdir. Bu münasibətlə bütün türk qardaşlarımızı ürəkdən təbrik edirəm. Bu, bir daha bizim birliyimizi göstərir, bir daha iradəmizi göstərir. Onu göstərir ki, biz haqq yolunda hər zaman bir-birimizin yanındayıq və yanında olacağıq.

Mən bir daha sizi salamlayıram. Sizə uğurlar, yaxşı nəticələr arzulayıram. Təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına mənim səmimi salamlarımı çatdırın.

**Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüraliyev çıxış edərək dedi:**

– Möhtərəm Prezident, sabahınız xeyir.

Hörmətli İlham Heydər oğlu, vaxt tapıb bizi qəbul etdiyiniz üçün Sizə nümayəndə heyəti adından və şəxsən öz adımdan təşəkkürümü bildirmək istəyirəm. Siz də öz çıxışınızda qeyd etdiyiniz kimi, bu, Sizin və dövlət başçılarının təşkilatımıza və fəaliyyətimizə diqqətinin göstəricisidir.

Kubanıçbek Ömüraliyev Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi dövlətlərinin təbii fəlakət və fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci görüşünün və "Bakı-2023" beynəlxalq təliminin əhəmiyyətinə toxundu. O, Azərbaycan Prezidentinin Türk Dövlətləri Təşkilatının fəaliyyətinə verdiyi dəstəyi xüsusi qeyd edərək bildirdi:

– Fürsətdən istifadə edərək, bir daha Sizə Türk Dövlətləri Təşkilatının fəaliyyətinə verdiyiniz ardıcıl dəstəyə görə təşəkkürümü bildirmək istəyirəm. Zati-aliləri, bütün dünyada sürətli dəyişikliklər, həmçinin mühüm hadisələr, qlobal və regional səviyyələrdə çağırışlar türk coğrafiyasında inteqrasiya üzrə əməkdaşlığı daha əhəmiyyətli, xalqlarımızı isə daha yaxın edir. Qardaş türk xalqları arasında münasibətlər böyük strateji əhəmiyyətə və potensiala malikdir. 2023-cü il fevralın 6-da qardaş Türkiyənin ərazisində baş vermiş dağıdıcı zəlzələlər zamanı biz şahidi olduq ki, təkcə dövlətlər deyil, həm də xalqlarımız ayağa qalxdı və qardaş Türkiyəyə görünməmiş həmrəylik nümayiş etdirdi və yardım göstərdi.

Kubanıçbek Ömüraliyev təbii fəlakət və fövqəladə hallarla mübarizədə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin səyləri birləşdirməsinin vacibliyinə toxundu. Qonaq Azərbaycan Prezidentinin təşəbbüsü ilə bu ilin martında Ankarada Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşünün keçirildiyini xatırladaraq həmin tədbirdə vacib qərarların qəbul edildiyini vurğuladı.

**Türkiyənin daxili işlər naziri Ali Yerlikaya çıxış edərək dedi:**

– Hörmətli cənab Prezident, əvvəlcə sıx qrafikinizdə vaxt ayırıb bizi qəbul etdiyiniz üçün təşəkkürlərimi bildirirəm.

Sizə cənab Prezidentimizin ən səmimi salamlarını gətirmişəm.

Bu gün burada – qardaş Azərbaycan torpaqlarında olmaqdan böyük məmnunluq duyuram. Hörmətli Prezidentimizin və Zati-alinizin himayəsi ilə inkişaf edib güclənən əməkdaşlığımızın dünyada tayı-bərabəri yoxdur. Biz də Daxili İşlər Nazirliyi olaraq, Azərbaycanın qurumları ilə əməkdaşlığımızı səmimiyyət və təmənnasızlıq əsasında inşa etmişik. Bu müddətdə keçirdiyimiz görüşləri isə diplomatik təmasdan daha çox qardaşlıq həmrəyliyimizin bir ifadəsi olaraq görürük.

Hörmətli cənab Prezident, icazənizlə, Qəhrəmanmaraş zəlzələlərində Can Azərbaycanımızın uzatdığı yardım əlini hüzurunuzda bir daha minnətdarlıqla yad etmək istəyirəm. Məlum olduğu kimi, çox böyük bir acını geridə qoymağa çalışırıq. Bu dövrdə Zati-alinizin liderliyi ilə Azərbaycanın qardaş köməyi nəcib millətimiz tərəfindən heç vaxt unudulmayacaq. Yardımımıza ilk gələn Azərbaycan olduğu kimi, ən son ayrılan axtarış-xilasetmə heyətləri də yenə Azərbaycanın heyətləri olmuşdur. Bütün maddi və mənəvi dəstəklərini bizə çatdırmaq üçün səfərbər olan azərbaycanlı qardaşlarımıza minnətdarlığımızı nə qədər ifadə etsək azdır.

Türkiyənin daxili işlər naziri təbii fəlakət və fövqəladə halların idarə edilməsi sahəsində həyata keçirdikləri fəaliyyət barədə məlumat verdi, Azərbaycanın aidiyyəti qurumları ilə əməkdaşlıqdan danışdı və bu əməkdaşlığı hər iki ölkənin dövlət başçılarının səmimi münasibətlərinə əsaslanaraq daha da gücləndirəcəklərini bildirdi. Qonaq Türkiyədə baş verən dəhşətli zəlzələdən sonra Prezident İlham Əliyevin təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Ankarada keçirilmiş fövqəladə Zirvə görüşünün önəmini qeyd edərək dedi:

– Hörmətli cənab Prezident, hüzurunuzda olmaqdan duyduğum məmnuniyyəti bir daha ifadə edir, bu sıx qrafikinizdə bizə vaxt ayırdığınız üçün təşəkkürlərimi bildirirəm. Həmçinin yaxınlaşmaqda olan Qarabağ Zəfərimizin ildönümü münasibətilə qardaş Azərbaycanımızı təbrik edir, şəhidlik zirvəsinə yüksəlmiş bütün azərbaycanlı qardaşlarımızı rəhmət və minnətdarlıqla anıram. Sizə ehtiramımı ifadə edirəm, cənab Prezident.

**Prezident İlham Əliyev:** Çox sağ olun, təşəkkür edirəm.

Dövlətimizin başçısı Türkiyə Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

***AZƏRTAC***

# Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlığın önəmi artır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidenti Yurgen Riqterinkin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Söhbət zamanı bu ilin yanvarında Davosda Prezident İlham Əliyevin Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidenti ilə görüşü məmnunluqla xatırlandı.

Görüşdə Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycanda fəaliyyət istiqamətləri və ölkəmiz üçün prioritet sahələr, xüsusilə bərpaolunan enerji, nəqliyyat, logistika, kiçik və orta biznesin inkişafı sahələrində, Orta Dəhliz istiqamətində əməkdaşlıq məsələləri müzakirə olundu.

Avropa Yenidənqurma və İnkişaf Bankı ilə Azərbaycan arasında əməkdaşlığın daha da genişləndirilməsinin önəmi vurğulandı, Bankın ölkəmizin enerji və nəqliyyat layihələrinə, xüsusilə Cənub Qaz Dəhlizinə ayırdığı kreditlərin vacibliyi qeyd olundu.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

# "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması və Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 27 sentyabr tarixli 462 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkənin müdafiə sənayesinin müasir tələblərə uyğunlaşdırılması və ordunun hərbi-texniki təchizatının daxili istehsal hesabına təmin edilməsi, Azərbaycanın regionda silah istehsal edən əsas sənaye mərkəzlərindən birinə çevrilməsinə nail olunması, habelə bu sahədə fəaliyyət göstərən dövlət müəssisələrinin qabaqcıl korporativ idarəetmə təcrübəsi tətbiq edilməklə rəqabətədavamlılığının, maliyyə-təsərrüfat fəaliyyətində dayanıqlılığın artırılması, gəlir və xərclərinə nəzarətin daha da gücləndirilməsi, vahid prinsiplər əsasında idarə olunması məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin tabeliyində "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyəti (bundan sonra – Cəmiyyət) yaradılsın.

**2.** Müəyyən edilsin ki:

2.1. Cəmiyyət silah istehsalının, ixracının, satışının təşkilini həyata keçirir, tabeliyində olan hüquqi şəxslərin vahid prinsiplər əsasında idarə edilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, onların maliyyə sabitliyinin və dayanıqlılığının yaxşılaşdırılması sahəsində işləri yerinə yetirir;

2.2. Cəmiyyətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr də daxil olmaqla 3 (üç) üzvdən ibarət Müşahidə Şurası yaradılır;

2.3. Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi baş direktor həyata keçirir.

**3.** Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin tabeliyində olan "İqlim Elmi-İstehsalat Müəssisəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti və "Sənayecihaz" Elmi-İstehsalat Müəssisəsi Cəmiyyətin tabeliyinə verilsin.

**4.** Cəmiyyətdə ümumi yığıncağın səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1. Cəmiyyətin yenidən təşkili və ləğvi;

4.1.2. Cəmiyyətin Müşahidə Şurasının və icra orqanının yaradılması;

4.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

4.2.1. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Cəmiyyətin nizamnaməsinin təsdiqi, nizamnamə kapitalının miqdarının müəyyən edilməsi;

4.2.2. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Müşahidə Şurasının rəhbərinin və üzvlərinin, habelə icra orqanının rəhbərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.2.3. Cəmiyyətin işçilərinin say həddinin və strukturunun müəyyən edilməsi;

4.3. Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyinə:

4.3.1. Cəmiyyətin illik hesabatlarının, maliyyə hesabatlarının təsdiq edilməsi, mənfəətinin və zərərinin bölüşdürülməsi;

4.3.2. Cəmiyyətin törəmə və asılı cəmiyyətlərinin yaradılmasına razılıq verilməsi;

4.3.3. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edilməsi.

**5.** Cəmiyyətin Müşahidə Şurasının səlahiyyətləri aşağıdakılardır:

5.1. Cəmiyyətin uzunmüddətli inkişaf strategiyasını təsdiq etmək;

5.2. Cəmiyyətin əməkhaqqı sistemini müəyyən etmək, xərclər və gəlirlər smetasını təsdiq etmək və onun icrasına nəzarəti həyata keçirmək;

5.3. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanmasına dair ümumi yığıncağa təkliflər vermək;

5.4. Cəmiyyətin fəaliyyətinin ayrı-ayrı sahələri üzrə siyasəti, daxili qaydaları, habelə filial və nümayəndəliklərinin əsasnamələrini təsdiq etmək;

5.5. bu Fərmanın 4-cü hissəsi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Cəmiyyətin nizamnaməsi və Azərbaycan Respublikasının bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları ilə Müşahidə Şurasının səlahiyyətlərinə aid edilmiş digər məsələləri həll etmək.

**6.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

6.1. iki ay müddətində:

6.1.1. Cəmiyyətin yaradılması ilə əlaqədar "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun və digər normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.1.2. Cəmiyyətin nizamnaməsini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

6.1.3. Cəmiyyətin işçilərinin say həddini və strukturunu müəyyən etsin;

6.2. Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin, onun strukturuna daxil olan qurumların və tabeliyində olan hüquqi şəxslərin balansında olan və Cəmiyyətin fəaliyyəti üçün zəruri olan dövlət əmlakının inventarizasiyasını apararaq, həmin dövlət əmlakının Cəmiyyətin balansına verilməsi ilə bağlı beş ay müddətində tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

6.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**7.** Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

**8.** Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 27 sentyabr tarixli 462 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 9, maddə 740; 2008, № 1, maddə 6; 2009, № 12, maddə 983; 2011, № 2, maddə 85; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 iyul tarixli 2234 nömrəli və 19 avqust tarixli 2308 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

8.1. 10-cu hissəyə "nazirliyin" sözündən əvvəl ", habelə strukturuna daxil olmayan tabeliyindəki qurumlar (hüquqi şəxslər, təşkilatlar və s.)" sözləri əlavə edilsin;

8.2. 14.4-cü bəndə "tabeliyində" sözündən əvvəl "Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla," sözləri əlavə edilsin;

8.3. 14.5-ci bəndə "nazirliyin" sözündən əvvəl "Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla," sözləri əlavə edilsin;

8.4. 14.6-cı bənddə "Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən siyahıya əsasən müəyyən edilmiş müəssisələr" sözləri "Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 sentyabr 2023-cü il**

# Braziliya Federativ Respublikasının Prezidenti Zati-aliləri cənab Luiz İnasio Lula da Silvaya

**Hörmətli cənab Prezident,**

Braziliya Federativ Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Bu il Azərbaycan ilə Braziliya əlamətdar ildönümünü – diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edəcəkdir. İnanıram ki, birgə səylərimizlə dövlətlərarası əlaqələrimiz xalqlarımızın mənafelərinə uyğun olaraq həm ikitərəfli qaydada, həm də beynəlxalq təsisatlar çərçivəsində bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, xalqınıza daim əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 sentyabr 2023-cü il**

# F.F.Xəlilovanın "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Flora Fətula qızı Xəlilova "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 sentyabr 2023-cü il**

# Bakının “B” planı, Zəngəzur dəhlizi və Ermənistan üçün dalan

## *30 illik təcrid, görünür, İrəvana dərs olmayıb*



**(əvvəli 1-ci səhifədə)**

Ümumən, Ermənistan Zəngəzur dəhlizi məsələsində qeyri-konstruktiv, yəni anti-Azərbaycan mövqe tutmaqda israrlı təsir bağışlayır. Deməli, C.Bayramovun nəzərdə tutduğu “B” planının işə düşməsi günün təxirəsalınmaz tələbidir. Əlbəttə, cənab nazir həmin planın detallarını açıqlamır. Onun dilə gətirdiklərinin, kifayət qədər, ölçülüb-biçilmiş məsələ olduğuna da şübhə yoxdur.

...Ölkəmizin XİN başçısı müsahibədə bəzi məqamlara toxunur. Bu məqamlardan biri Ermənistanın haqqında söz açdığımız qeyri-kontstruktiv yanaşmasıdır: “Hansısa bir anda elə bir hiss yaranır ki, biz işi başa çatdırmağa yaxınıq, son anda Ermənistan birdən-birə yeni nəsə irəli sürür ki, bu da prosesi yenidən dalana aparır”.

Əslində, Azərbaycan Prezidenti İlham Əliyevin, eləcə də dövlətimizin rəsmilərinin indiyədək də oxşar məzmunlu açıqlamarı olub. Onlar İrəvanın tutduğu yolun perspektivsizliyini vurğulayıblar. Eyni zamanda, deməliyik ki, Ermənistan daxilində də məsələyə diqqət yetirən qütblərə rast gəlinib. Bu qütblərin təmsilçilərinin dediklərindən hasil olan qənaət budur: Azərbaycan indi nəyi təklif edirsə, razılaşmaq şərtdir. Çünki sabah bu təkliflər olmaya bilər.

***

Ermənistandakı bəzi siyasi cinahların nümayəndələri onu da bildirirlər ki, Qarabağ münaqişəsi ölkə üçün nəinki vaxt itkisi reallığını doğurub, eyni zamanda, onu inkişafdan geri salıb. Belələrinin arqumentləri çox sadədir – Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəməri. Məlum olduğu kimi, sözügedən kəmərin vaxtilə Ermənistandan keçməsi məsələsi aktual idi. Ancaq Bakı prinsipiallıq göstərərək, buna imkan vermədi. Ümummilli lider Heydər Əliyev bütün siyasi və diplomatik vasitələrdən yararlanaraq, İrəvanı əsrin layihəsindən kənarda qoydu. Ermənilərin qazancı işğal etdikləri torpaqlarımızdakı yaşayış məskənlərinin söküb-talamaqdan başqa bir şey olmadı. Belə görünür ki, İrəvan qarətlər nəticəsində əldə etdikləri ilə kifayətlənməyi üstün tutur. Əlbəttə, buna kifayətlənmək demək mümkündürsə...

Bəli, Ermənistan “barışmazlıq ampluasına” sadiqdir. Deməli, cənab Bayramov çox doğru vurğulayır ki, İrəvanın bu cür yanaşması ölkənin iqtisadiyyatını düzəltmək üçün daha bir sərfəli fürsəti əldən verməsi ilə nəticələnə bilər. Fikrini Zəngəzur dəhlizi müstəvisinə gətirən nazir bildirir ki, yolun Ermənistandan yan keçməsi mümkündür. Necə ki, vaxtilə BTC yan keçmişdi. Özü də söhbət yalnız BTC-dən getmir. Nəzərə alaq ki, ölkəmiz bir çox nəhəng layihələrin təşəbbüskarı və icraçısıdır. Həmin layihələrdə söz sahibidir və Bakının mövqeyi imkan verir ki, İrəvan yenidən təcrid olunmuş durumda qalsın.

Üstəlik, ötən əsrin 90-cı illərindən fərqli olaraq, hazırda Azərbaycanın beynəlxalq-siyasi mövqeyi qat-qat güclüdür. Mövcud amil də onu deməyə əsas verir ki, ölkəmizin C.Bayramovun nəzərdə tutduğu “B” planına keçid alması yalnız an məsələsidir. Bununla bağlı digər məqam da var. Ondan söhbət açarkən, yada Rusiya amili düşür.

Məlum olduğu kimi, Qarabağ münaqişəsi, ümumən Azərbaycan – Ermənistan ziddiyyətlərini körükləyən, habelə, ölkəmizin torpaqlarının işğalında Ermənistana yardım göstərən Rusiya olmuşdur. Güman edirik, Rusiyanın yalnız 366-cı motoatıcı alayının Xocalı soyqırımının törədilməsindəki iştirakını vurğulamaq yetərlidir. Hələ başqa “nümunələri” də saya bilərik və onların sayəsində Azərbaycan ötən əsrin 90-cı illərində Ermənistanla nəticələri çox ağır və ağrılı olan qeyri-bərabər mübarizə meydanına atılmışdı.

O zaman Rusiyanın tələbi nə idi? Azərbaycanda rus qoşunları qalsın, İranla sərhədi həmin qoşunlar qorusunlar. Başqa məqamlar da var idi ki, onların hamısının üzərində dayanmağa lüzum görmürük. Ümumən, beynəlxalq aləm dünya erməniliyinin tərəfində yer almışdı və indi görünür ki, ulu öndər Heydər Əliyev hansı çətin şərtlər altında Azərbaycanın Ermənistanı təcrid siyasətini həyata keçirmişdi. Axı, dünya erməniliyi bu gün də “trenddir”. Mahiyyətcə, hazırda Azərbaycana göstərilən təzyiqlər də həmin “trendin” işlək durumundan xəbər verməkdədir.

***

Ancaq zaman o zaman deyil. Rusiyadan danışırdıq. Əgər 90-cı illərdə erməni avantürasına təkan və dəstək verən Moskva üçün prioritet Azərbaycana indi lokal və primitiv kimi görünən şərtlərini diktə etmək idisə, hazırda onun özü də yeni yaşam yollarına ehtiyac duymaqdadır. Söhbət təkcə 2022-ci ilin fevralından başlanmış Ukrayna müharibəsinin doğurduğu ağır vəziyyətin öhdəsindən gəlinməsinin çətinliyindən getmir. Əslində, Ukraynaya qədər də Rusiya iqtisadiyyatının vəziyyətində diskomfort yaşanırdı. Türk dünyasının təşəkkülü, xüsusən Azərbaycanın bu istiqamətdə öncül mövqeyə sahibliyi fonunda, mövcud platformanın daha səmərəli nəticələri önə çəkilməyə başlamışdı. Deməli, əgər 90-cı illərdə Ermənistan itirmişdisə və proses indi də davam edirsə, hazırda itirən tərəf yalnız İrəvan deyil, eyni zamanda, Rusiya ola bilər. Birincini başa düşdük, avantürizmə qapılıb, axı ikinci barədə eyni fikri işlətmək olmur. Hər halda rus diplomatiyasının rasionallığı qoruyacağını söyləmək mümkündür...

Bu gün Rusiya Azərbaycan – Ermənistan münasibətləri kontekstində 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata və digər eyni formatlı bəyanatlara istinad edir. Həmin sənədlərin icrasını sülh yolunda başlıca amil kimi qiymətləndirdiyini açıqlayır. O da görünür ki, Moskva daha çox Cənubi Qafqaz siyasi akvatoriyasındakı prosesləri nəzarətində saxlamaq niyyəti güdür. Nəzəri baxımdan yanaşsaq, ona Qarabağdakı separatçılığın saxlanılması məhz buna görə lazım ola bilər. Ölkənin bu yolla regionun gələcəyinə dair layihələrdə iştirak istəyini, bir növ, təminat altına almış kimi görünməsi də mümkündür.

Baxın, Rusiya rəsmiləri üçtərəfli bəyanat məntiqinə istinadən, bir qayda olaraq, bölgədə kommunikasiyaların açılması məsələsi üzərində dayanırlar. Bəlkə də Qərblə Rusiyanın maraqlarındakı yeganə uzlaşma nöqtəsi məhz budur. Lakin Kreml sabah onu həmin kommunikasiyalardan kənarda qoymaq fikrinə düşən qütblərin ortaya atılmayacağına əmin deyil. Buna görə, necə deyərlər, tutacaq yerə ehtiyac duyur. Bir daha bildirək ki, hazırkı situasiyada bu baxımdan ən yaxşı nöqtə Qarabağdır. Məhz mövcud səbəbdən Rusiya rəsmiləri kommunikasiyaların açılmasını istəyir, Qarabağın statusu məsələsinin sonraya saxlanılması fikrini irəli sürürdülər. Əlbəttə, sonradan bu mövqe sülh müqaviləsinin imzalanmasına dair perspektiv notlar üzərində kökləndi. Yəni, status Azərbaycan Prezidentinin bildirdiyi kimi, cəhənnəmə getdi və belə görünür, Kreml məsələnin belə qoyuluşu ilə barışıb.

Bəli, təkrar bildirək ki, Rusiya təminat əldə etmək niyyətindədir. Bir məsələ də var –- ölkə vaxtilə ona qlobal miqyasda verilmiş təminatların puç olduğunu görmüşdü. Əslində, hazırda Kremlin Ukrayna müharibəsini özü üçün ədalətli sayması da məhz bundan qaynaqlanır. Yəni Qərbin hakim siyasi dairələrinin sözlərinin üstündə durmamalarından, vədlərinə xilaf çıxmalarından. Əlbəttə, Rusiya Cənubi Qafqazdakı durumun fərqli olduğunun fərqindədir və xeyli dərəcədə ehtiyatlıdır. Onun üçün bu siyasi akvatoriya xeyli mürəkkəbdir və mürəkkəblik fonunda Moskvanın ortaya qoyduğu bir aydın siyasi kazus var – Qərb Rusiyanı Cənubi Qafqazdan sıxışdırmaq istəyir. Və onu da görürük ki, Ermənistan Moskvanı bölgədən uzaqlaşdırmaq naminə hərəkətə gətirilir. Baş nazir Nikol Paşinyanın anti-Rusiya ritorikasına hakim kəsilən fikri konkretdir: Çıx get! Yəni, Qərb Nikolun dili ilə Moskvaya səslənir. Paşinyan isə bütün siyasi tərbiyəsizlik və hədsizlik elementlərini işə salaraq sanki Rusiya ilə məzələnməkdədir. Qeyd edək ki, o, hakimiyyətə gələndə də eyni havada idi. Məzələnməyin axırını gördük. Nikol 44 günlük müharibə məşəqqətinin bitməsi üçün, az qala, Kremlə yalvarırdı. Yeri gəlmişkən, Rusiyanın siyasi dairələri bu məqamı qabartmağı xoşlayırlar...

Ancaq zaman göstərdi ki, Ermənistanın yalvarışı dövlət siyasətinə və riyakarlığın vasitəsinə çevirib. O, özünü müharibə rüsvayçılığından nəticə çıxarmayıbmış kimi aparmaqdadır və bu, Rusiyanın əldə etməyə çalışdığı təminat faktoruna da mənfi təsirini göstərməkdədir. İrəvan ikibaşlı oyun oynayır: həm çalışır ki, Azərbaycana güzəştə getməsin, Qarabağ iddialarını davam etdirsin. Eyni zamanda, Rusiyanın Cənubi Qafqazdakı maraqlarına təhdid dilini işə salmaqla, birincinin özünü rahat hiss etməsinə maneçilik törətsin.

***

Obrazlı desək, qatar yola düşməlidir. Söhbət Zəngəzur dəhlizi layihəsinin gerçəkləşməsindən gedir və Rusiya həmin qatarda yer almaq iddiasındadır. Belə olan halda, Moskvanın erməni avantürizminə dözmək səbrinin də, imkanlarının da daraldığını söyləməyə əsas yaranır. Yəni, Moskva mövqeyini qəti şəkildə ortaya qoymalı, növbətçi bəyanatları sıralamaqdan çəkinməlidir. Anlamalıdır ki, o sənədlərə arxayın olub İrəvanın ağlını başına yığacağına ümid bəsləmək sadəlövhlük və vaxt itkisidir.

Həm də ona görə buna ümid bəsləmək olmaz ki, Ermənistan, ümumən, Zəngəzur dəhlizinə zidd qüvvələrin səngərində təmsil olunmaqdadır. O da nəzərə alınmalıdır ki, hazırda Azərbaycan və Türkiyə həmin səngərdə təmsilçilikləri olanları siyasi meydandan kənarlaşdırmaq əzmli diplomatik mövqe nümayiş etdirməkdədir və baş verənlər onu göstərir ki, bu mövqe xeyli dərəcədə möhkəmdir. Elə məhz bu səbəbdən də C.Bayramov bildirir ki, Azərbaycan “B” planına malik olmaqla, Zəngəzur dəhlizinin işə başlamasına yönələn fəaliyyətini davam etdirəcək. Ən əsası, o, sözügedən layihənin, hətta, Ermənistanın iştirakı olmadan həyata keçiriləcəyini vurğulayır və son dərəcə əmin tərzdə bildirir ki, İrəvan yenə itirən tərəf olacaq. Nazirin təbirincə desək, Ermənistan benefisiarlar siyahısından çıxacaq.

Sonda bir daha vurğulayaq ki, Ermənistan özünü dalana dirəməkdədir. Belə görünür, ölkəyə 30 ilə yaxın davam etmiş təcrid dərs olmayıb. Olmayıbsa, avantürizminə davam etsin və itirməyində olsun. Zəngəzur dəhlizi və onun fəaliyyəti isə Azərbaycan qarşısında dayanmış bir vəzifədir və dövlətimizin iradəsi nəticəsində mütləq icra olunacaqdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Kəlbəcərdə İşçi qrupunun iclası

## *Gələn il rayona 13 min sakin köçürüləcək*



**Sentyabrın 7-də Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Şəhərsalma məsələləri üzrə İşçi qrupunun Kəlbəcər şəhərində növbəti iclası keçirilib. Tədbirdə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətov, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov, İdarələrarası Mərkəzin katibliyinin rəhbəri Nüsrət Süleymanov və Şəhərsalma məsələləri üzrə İşçi qrupunda təmsil olunan qurumların nümayəndələri iştirak ediblər.**

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətovun sədrliyi ilə keçirilən iclasda Kəlbəcər rayonunda aparılan şəhərsalma fəaliyyəti və layihələndirmə işləri haqqında ətraflı məlumat verilib, daxili yol-küçə şəbəkəsinin planlaşdırılması, yaşayış məntəqələrinin elektrik enerjisi və su ilə təminatı, eləcə də digər infrastruktur obyektlərinin bərpası istiqamətində görüləcək işlər, bölgənin turizm potensialının inkişafı məsələləri müzakirə edilib. İşçi qrupun iclaslarının artıq bir qayda olaraq işğaldan azad olunmuş şəhərlərimizdə keçirilməsini sevindirici bir hal olduğunu qeyd edən Komitə sədrinin birinci müavini, iclasın Kəlbəcərdə ilk dəfə keçirildiyini vurğulayıb.

Prezident İlham Əliyevin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın tədbirlər planında nəzərdə tutulan məsələlərin vaxtında və keyfiyyətlə icra edilməsi üçün aidiyyəti qurumlar tərəfindən görülmüş və görüləcək işlərin müzakirə edilməsi, müvafiq tapşırıqların verilməsi üçün iclasın əlverişli platforma rolunu oynadığı qeyd edilib.

İclasda məlumat verilib ki, Kəlbəcər şəhərinin Baş planı hazırda aidiyyəti dövlət qurumları ilə razılaşdırma mərhələsindədir. Ölkə rəhbərliyinin göstərişləri əsasında inkişaf konsepsiyasına uyğun olaraq rayon infrastrukturu sürətlə yenilənməkdədir. Cari ildə dövlət başçısı tərəfindən Kəlbəcər şəhərində ilk yaşayış məhəlləsinin, 960 şagird yerlik orta məktəb binasının, habelə rayonun Zar, Zallar və Yanşaq kəndlərinin təməli qoyulub. Qeyd edilənlərin layihələndirməsi ilə yanaşı, İstisu qəsəbəsində mehmanxana kompleksi və su istehsalı zavodu tikilir.

Mövcud plan üzrə 2023-cü ildə Kəlbəcər rayonunda daha 7, 2024-cü ildə isə 4 yaşayış məntəqəsinin layihələndirilmə işləri aparılacaq. Ümumilikdə, 2026-cı ilədək 1-i şəhər, 1-i qəsəbə, 13-ü kənd olmaqla 15 yaşayış məntəqəsinin bərpası həyata keçiriləcək.

Həmçinin bildirilib ki, işğaldan azad edilmiş torpaqlarda yaşayış ərazilərinin minalardan təmizləmə prosesi də sürətlə davam etdirilir. Belə ki, 2023-cü ilin 8 ayı ərzində rayonda yaşayış məntəqələri torpaqları üzrə təxminən 1105 hektar sahədən 653 hektarı minalardan təmizlənib.

İnfrastruktur məsələlərinə gəldikdə, Kəlbəcər şəhərində yaşayış məntəqələrinin küçə-yol şəbəkəsinin qurulması istiqamətində ümumi uzunluğu 27,08 km olan yol-küçə şəbəkəsinin hazırda 18,87 km-lik hissəsi layihələndirildiyi qeyd olunub.

Eyni zamanda, Kəlbəcər rayonunda 2026-cı ilə qədər, təxminən, 2 min fərdi yaşayış evinin və 1500 mənzilin istismara verilməsi nəzərdə tutulur. Kəlbəcər şəhərində tikiləcək evlərə ilkin mərhələdə 2024-cü ildə 5 mindən artıq, kənd və qəsəbələrə isə 8 minə yaxın, ümumilikdə 13 minə yaxın insanın köçürülməsi planlaşdırılır.

İclasda bu günədək Kəlbəcər ərazisində həyata keçirilmiş işlərə dair məlumat verildikdən sonra müzakirələr zamanı qarşıdakı dövrdə görülməsi planlaşdırılan məsələlərə dair müvafiq tapşırıqlar verilib.

Daha sonra Şəhərsalma məsələləri üzrə işçi qrupunda təmsil olunan qurumların nümayəndələri Kəlbəcər şəhərində inşası aparılan ilk yaşayış məhəlləsinə baxış keçiriblər.

***XQ***

# XİN: Ermənistan hərbi və siyasi təxribatlara son qoymalıdır

**Ermənistanın baş naziri Nikol Paşinyanın sentyabrın 7-də hökumətin iclasında Azərbaycanı bölgədə hərbi-siyasi vəziyyəti gərginləşdirməkdə təqsirləndirməsi, guya Azərbaycanın ərazidə qüvvələr cəmləşdirməsi iddiaları irəli sürməsi Ermənistan tərəfinin növbəti saxta siyasi manipulyasiyasının tərkib hissəsidir.**

Bu barədə Azərbaycan XİN-nin Ermənistanın baş nazirinin hökumət iclasında çıxışı zamanı səsləndirdiyi iddialara dair şərhində deyilir.

“Bölgədə təhlükəsizliyə əsl hədənin Ermənistan tərəfindən hərbi-siyasi təxribatların davam etməsi, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı baş nazir daxil olmaqla Ermənistan tərəfinin davam edən iddiaları, öhdəliklərə zidd olaraq Azərbaycan ərazilərindən hələ də çıxarılmayan erməni silahlı qüvvələri olduğu hər kəsə məlumdur. Bölgədə sülh və təhlükəsizliyin bərqərar olması üçün Ermənistan tərəfi Azərbaycana qarşı ərazi iddialarından əl çəkməli, hərbi və siyasi təxribatlara son qoymalı, sülh müqaviləsi üzrə danışıqlar prosesinin uğurla nəticələnməsi istiqamətində törədilən maneçilikləri dayandırmalıdır”, - deyə şərhdə qeyd edilib.

***XQ***

# 25 ailənin də Füzuli həsrəti bitdi



**(əvvəli 1-ci səhifədə)**

Həmin gün ailələrə mənzillərin açarları təqdim edilib və onlar yenidən tikilən evlərdə məskunlaşıblar. Açarları Qarabağ İqtisadi Rayonuna daxil olan İşğaldan azad edilmiş ərazilərdə Prezidentin xüsusi nümayəndəliyinin əməkdaşı Eldar Seyidov təqdim edib. İndiyədək Füzuli şəhərində 95 ailənin – 349 nəfərin daimi məskunlaşması təmin edilib.

Sürətlə bərpa edilən Füzuli şəhərinin ilk sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildiriblər. Onlar bu yolda canlarından keçən şəhidlərimizin xatirəsini böyük ehtiramla yad ediblər.

***XQ***

# Ermənistan vəziyyəti gərginləşdirir

## İrəvan–Afina hərbi əməkdaşlığı yeni təxribatlara yol açır

**(əvvəli 1-ci səhifədə)**

Bundan əlavə, Ermənistan son vaxtlar müxtəlif yaxın-uzaq ölkələrlə hərbi və hərbi-texniki əməkdaşlığı genişləndirir. Bu sırada xüsusilə Fransanın, Hindistanın, Yunanıstanın, Kipr Respublikasının (Cənubi Kipr) və İranın adlarını çəkmək lazımdır. Ermənistanın media məkanında, demək olar ki, hər gün adları çəkilən ölkələrlə hərbi və hərbi-texniki əməkdaşlığın inkişafı ilə bağlı informasiyalar yayımlanır. Ölkələrin müdafiə sahəsinə məsul şəxslərin səfərlərinin intensivləşməsi də diqqətdən yayınmır.



Bu istiqamətdə yayılan sonuncu məlumat Ermənistan və Yunanıstanın hərbi-texniki əməkdaşlıq haqqında saziş imzalamağı planlaşdırması ilə bağlıdır. "Armenpress"in məlumatına görə, sazişin təsdiq edilməsi məsələsi Ermənistan hökumətinin iclasının gündəliyinə daxil edilib.

Sazişin təsdiq olunması ilə bağlı layihənin əsaslandırmasında qeyd edilir ki, Ermənistanla Yunanıstan arasında dostluq qədim dövrlərdən (?) ümumi dəyərlərə və möhkəm tarixi bağlara əsaslanır. Bildirilir ki, erməni-yunan əlaqələri ənənəvi olaraq isti və dostluq xarakteri daşıması ilə fərqlənir, eləcə də müasir dövrdə iki ölkə arasında sıx əlaqələr mövcuddur. Əməkdaşlıq və tərəfdaşlıq, demək olar ki, bütün sahələri əhatə edir.

"Ermənistan-Yunanıstan siyasi dialoqunun yüksək səviyyəsi, eləcə də ikitərəfli və çoxtərəfli platformalar üzrə qarşılıqlı fəaliyyət müdafiə sahəsində daha sıx və səmərəli əməkdaşlıq üçün əlverişli zəmin yaradır. Buna görə Ermənistan da əməkdaşlığın genişləndirilməsinə və dərinləşdirilməsinə yönəlmiş səylərə böyük əhəmiyyət verir", – deyə layihənin əsaslandırmasında bildirilir. Eyni zamanda, qeyd olunur ki, İrəvan sazişin imzalanmasına Ermənistan və NATO arasında vacib körpü, eləcə də Şimali Atlantika Təşkilatı üzv ölkələri ilə əlaqələrin inkişafı kontekstində tərəfdaşlığın dərinləşdirilməsi vasitəsi kimi yanaşır.

Sazişin müddəaları tərəflər arasında əməkdaşlığın istiqamətlərini, xüsusən müdafiə qabiliyyətini gücləndirmək məqsədilə yeni texnologiyalar və hərbi təyinatlı məhsullar üzrə tədqiqatların stimullaşdırılmasını, milli qanunvericiliyə uyğun olaraq inkişaf və istehsal sahələrində əməkdaşlığı müəyyən edir. Sənəd hərbi-texniki əməkdaşlığın formaları, o cümlədən texniki kadrların hazırlanması, üçüncü ölkələrdə istehsal olunan hərbi təyinatlı məhsulların təmiri və istismarı ilə bağlı xidmətlərin göstərilməsinə dair müddəaları da nəzərdə tutur.

Bildirilir ki, iki ölkənin müdafiə nazirlərinin qarşılıqlı səfərləri, o cümlədən müdafiə sahəsində indiyədək imzalanmış bir sıra hüquqi müqavilələr hər iki tərəfin mövcud əlaqələri daha yüksək səviyyəyə qaldırmaq istəyindən xəbər verir.

Əlbəttə, hansısa ölkənin digəri ilə hərbi əməkdaşlığı inkişaf etdirməsi onun suveren hüququdur. Ancaq burada tərəflərdən birinin Azərbaycan ərazilərin 30 ilə yaxın işğal altında saxlayan, bu gün də Qarabağdakı separatçı rejimi dəstəkləyən Ermənistan, digərinin isə Azərbaycanın ən yaxın strateji müttəfiqi Türkiyə ilə ciddi problemlər yaşayan Yunanıstan olduğu nəzərdən qaçmamalıdır. Aydın olur ki, erməni-yunan hərbi əməkdaşlığı, əslində, Azərbaycan-Türkiyə tandeminə qarşı yönəlib. Belə olan təqdirdə bu məsələyə münasibət bildirməyə zərurət yaranır.

***

Qeyd etdiyimiz kimi, Hayastan təkcə Yunanıstanla yox, digər ölkələrlə, o cümlədən yer üzündəki ikinci yunan dövləti olan Cənubi Kiplə də hərbi əməkdaşlığı genişləndirir. Sentyabrın 7-də Ermənistanın müdafiə naziri Suren Papikyanla Cənibi Kiprin müdafiə naziri Mixalis Yorqallas arasında telefon danışığı olub. Papikyan öz "Facebook" səhifəsində telefon danışığı zamanı Ermənistan və Kipr ətrafında təhlükəsizliklə ilə bağlı məsələlərin müzakirə edildiyini yazıb. "Mən həmkarıma son günlər Ermənistan–Azərbaycan sərhədindəki vəziyyəti təqdim etdim. Həmçinin, müdafiə sahəsində ikitərəfli əməkdaşlığın gedişi müzakirə olundu. Biz əməkdaşlığın hazırkı səviyyəsindən məmnunluğumuzu ifadə etdik və onun daha da genişləndirilməsinə hazır olduğumuzu vurğuladıq", – deyə Papikyan bildirib.

Onu da qeyd edək ki, 2023-cü il aprelin 20-də İrəvanda Ermənistan, İran və Hindistan xarici işlər nazirlikləri arasında üçtərəfli formatda ilk siyasi məsləhətləşmələr keçirilmişdi. İyulun 5-də isə Nikosiyada Ermənistan–Yunanıstan–Kipr üçtərəfli müdafiə məsləhətləşmələri keçirilib. Ermənistan müdafiə nazirliyi o vaxt bildirmişdi ki, tərəflər üç ölkənin müdafiə qabiliyyətinin və hərbi təhlükəsizliyinin möhkəmləndirilməsi üçün birgə addımlar atmağa hazır olduqlarını təsdiqləyiblər. Müzakirələr nəticəsində Ermənistan, Yunanıstan və Kiprdə bir sıra tədbirlərin keçirilməsini özündə əks etdirən üçtərəfli hərbi əməkdaşlığa dair illik proqram imzalanmışdı.

Göründüyü kimi, Ermənistan hökuməti bölgədə destruktiv siyasətini davam etdirir. Buna rəğmən hayların baş naziri dünən Azərbaycanın yeni təxribatlara hazırlaşdığını iddia edib. Paşinyan hökumətin iclasında deyib ki, son həftə ərzində regionumuzda hərbi-siyasi vəziyyət xeyli pisləşib: "Səbəb odur ki, Azərbaycan neçə gündür Qarabağın təmas xəttində və Ermənistan–Azərbaycan sərhədi boyunca qoşun toplayır. Qarabağda "humanitar böhran" pik həddə çatıb. Aydındır ki, Azərbaycan bu hərəkətləri ilə Qarabağa və Ermənistana qarşı yeni hərbi təxribat törətmək niyyətində olduğunu nümayiş etdirir". Onun sözlərinə görə, beynəlxalq ictimaiyyət, BMT Təhlükəsizlik Şurasının üzvü olan dövlətlər regionumuzda yeni partlayışın qarşısını almaq üçün ciddi tədbirlər görməlidirlər.

Ermənistan baş naziri bölgədə təhlükəsizlik mühitinə xələl gətirən addımlarına, yeni təxribatlar üçün digər ölkələrlə hərbi əməkdaşlığı genişləndirməsinə rəğmən, Azərbaycanı ittiham etməsi heç bir ölçüyə sığmayan hərəkətdir. Ancaq biz hayların xislətinə bələd olduğumuz üçün baş nazirin açıqlamasına görə də təəccüblənmirik. Sadəcə onu deməyi özümüzə borc bilirik ki, bölgədə baş verə biləcək bütün təxribatların məsuliyyəti tam şəkildə Ermənistan hərbi-siyasi rəhbərliyinin üzərinə düşəcək.

*Səxavət HƏMİD*
*XQ*

### EKSPERT RƏYİ



**Alparslan İMAMQULU, ehtiyatda olan polkovnik-leytenant**

– İrəvanın Afina ilə uzun illərdən, demək olar ki, Ermənistanın müstəqillik əldə etməsindən bəri hərbi əməkdaşlığı mövcuddur. Ermənistanın hərbi kadrlarının bir çoxu bu ölkədə yetişib və yetişməkdədirlər. Necə ki, Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlıq var və bu əməkdaşlıq çərçivəsində bizim bir çox zabitlərimiz Türkiyənin ali hərbi məktəblərində, akademiyalarında təhsil alıblar. Eyni proses Ermənistanla Yunanıstan arasında da baş verir. Sadəcə, fərq ondadır ki, Azərbaycan–Türkiyə hərbi əməkdaşlığı bölgədə sülhə, əmin-amanlığa xidmət edirsə, Ermənistan–Yunanıstan hərbi əməkdaşlığı hərbi təxribatların baş verməsinə, dağıdıcılığa, işğalçı niyyətlərə yönəlib.

Bilirsiniz ki, Yunanıstanla Türkiyə arasında problemlər var. Həmçinin Hindistanın hazırda Ermənistana müxtəlif istiqamətlərdə dəstək verməsi Pakistanla Azərbaycanın müttəfiqliyi ilə əlaqədardır. Amma Cənubi Qafqazda Rusiyanın dəstəyi və ya icazəsi olmadan heç bir ölkə Ermənistana dəstək ola bilməz. Burada Rusiyanın proksi fəaliyyəti var. Rusiyanın adını çəkən yoxdur. Amma şimal qonşumuzun göstərdiyi istiqamətlərdə Hindistan, Yunanıstan, İran kimi dövlətlər bu gün Ermənistana müttəfiqlik etməkdə və ona dəstək verməkdədirlər.

Ermənistan–Yunanıstan hərbi-texniki əməkdaşlıq sazişinin imzalanması Hayastan ordusuna dolayısı ilə verilən dəstəkdir, onun hazırlıq səviyyəsini yüksəltməkdir.

# Separatçılar yeni "qlavar" axtarırlar

**(əvvəli 1-ci səhifədə)**

Qarabağ separatçıları vəziyyətdən çıxış yolu tapmaq üçün, demək olar ki, hər gün hansısa yeni bir təşəbbüslə çıxış edirlər. Belə təşəbbüslərdən birini səsləndirən Qarabağ separatçılarının əldəqayırma parlamentində "ikinci böyük siyasi qüvvə" olan "Vahid vətən" partiyasının rəhbəri Samvel Babayan Bakıya təkliflər verdiyini təsdiqləyib. Ancaq o, Qarabağdakı "humanitar böhran"ın həlli üçün təklifləri kimə, hansı kanallara verdiyini və nə cavab aldığını açıqlamayıb. Qarabağdakı separatçı rejimin keçmiş müdafiə naziri, indiki "hakimiyyət"in tənqidçisi Babayan "Azadlıq radiosu"nun erməni xidmətinə deyib ki, onda həll variantları var və paket Bakıya göndərilib. Dediyinə görə, bəzi cavablar da var, müzakirələr gedir. Bir masa arxasında əyləşib məsələləri müzakirə etmək planı da var. Babayan öz təklifini ümumi şəkildə belə təsvir edib: "Azərbaycanlılarla qarşılıqlı inama nail olmaq, daha sonra siyasi həllə keçmək lazımdır".

Azərbaycanla hansı yolla ünsiyyət qurduğunu açıqlamayan Babayan bildirib ki, onda Qarabağ rejiminin də Bakı ilə əlaqə saxlaması (?), hətta bunu gündəlik etməsinə dair informasiya var. Ancaq separatçı rejim belə bir informasiya verməyib.

Qeyd edək ki, Azərbaycan Xankəndidəki rejimin təmsilçisi ilə sonuncu dəfə martın 1-də təmas qurduğunu açıqlayıb. Belə ki, Milli Məclisin deputatı Ramin Məmmədov Qarabağda yaşayan erməni sakinlərlə təmaslar üzrə məsul şəxs kimi müəyyən olunub. Martın 1-də Xocalıda ilkin təmaslar aparılıb. Təəssüf ki, bu təmaslardan sonra erməni sakinlərin nümayəndələrinin arzuolunmaz açıqlamalarının şahidi olduq.

Onu da bildirək ki, sentyabrın 8-də qondarma parlament rejimə yeni başçı "seçməlidir". Bu postu avqust ayından bəri "parlament"ə rəhbərlik edən "Daşnaksütyun" partiyasının təmsilçisi David İşxanyanın tutacağı gözlənilir. İşxanyan hazırda "artsax prezidenti" vəzifəsini icra edir. Dünən onun çağırdığı məsləhətləşmə zamanı "parlamentdə" yeni "qlavar"ın kim olacağı ilə bağlı məsələlər müzakirə olunub.



Bu təyinata son günlər pisləşən Rusiya–Ermənistan münasibətləri kontekstində də baxmaq mümkündür. Belə ki, İşxanyan məhz Koçaryana, Sarkisyana yaxın, eləcə də Rusiya meyilli şəxs hesab olunur.

***

Bu arada Ermənistan baş naziri Nikol Paşinyan hökumətin dünən keçirilən iclasında Azərbaycanın yeni təxribatlara hazırlaşdığını iddia edib. Deyib ki, son həftə ərzində regionumuzda hərbi-siyasi vəziyyət xeyli pisləşib. Səbəb isə guya, Azərbaycanın neçə gündür Qarabağın təmas xəttində və Ermənistan–Azərbaycan sərhədi boyunca qoşun toplamasıdır.

Paşinyana Azərbaycan Xarici İşlər Nazirliyinin cavabı özünü çox gözləməyib. Nazirlik bildirib ki, Ermənistan baş nazirinin sentyabrın 7-də hökumətin iclası zamanı Azərbaycanı bölgədə hərbi-siyasi vəziyyəti gərginləşdirməkdə təqsirləndirməsi, guya, Azərbaycanın ərazidə qüvvələr cəmləşdirməsi iddiaları irəli sürməsi İrəvanın növbəti saxta siyasi manipulyasiyasının tərkib hissəsidir. Qeyd olunub ki, bölgədə təhlükəsizliyə əsl hədənin Ermənistan tərəfindən hərbi-siyasi təxribatların davam etməsi, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı baş nəzir daxil olmaqla Ermənistan tərəfinin davam edən iddiaları, öhdəliklərə zidd olaraq Azərbaycan ərazilərindən hələ də çıxarılmayan erməni silahlı qüvvələri olduğu hər kəsə məlumdur. "Bölgədə sülh və təhlükəsizliyin bərqərar olması üçün Ermənistan tərəfi Azərbaycana qarşı ərazi iddialarından əl çəkməli, hərbi və siyasi təxribatlara son qoymalı, sülh müqaviləsi danışıqlar prosesinin uğurla nəticələnməsi istiqamətində törədilən maneçilikləri dayandırmalıdır", – deyə XİN-in açıqlamasında bildirilib.

Paşinyanın səsləndirdiyi iddialarla bağlı Qərbi Azərbaycan İcması da məlumat yayıb. Məlumatda deyilir: "Ermənistan baş naziri Nikol Paşinyanın 2023-cü il sentyabrın 7-də verdiyi açıqlamalar bir daha onu göstərir ki, rəsmi İrəvanın Azərbaycanla sülh müqaviləsini imzalamaq, Azərbaycana qarşı ərazi iddiasına son qoymaq niyyəti yoxdur. Ermənistan yalnız sözdə Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. Ermənistanın mövqeyi, əslində, aşağıdakı kimidir: "Ermənistan Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü o halda tanıyır ki, beynəlxalq mexanizm çərçivəsində Bakı-Xankəndi danışıqları vasitəsilə Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi təmin edilsin". Hər dəfə "beynəlxalq mexanizm" kimi utopik fikirləri təkrar etməklə Ermənistanın baş naziri faktiki olaraq Azərbaycana şərt qoyur. Tarix Nikol Paşinyanın 2020-ci il Tovuz döyüşlərindən sonra Azərbaycana qarşı "7 şərt"lə çıxış etməsini, onun və ölkəsinin sonrakı aqibətini yaxşı xatırlayır. Təəssüf ki, Ermənistan baş naziri sülh müqaviləsini imzalamamaqla yanaşı, həm də bölgədə vəziyyəti daha da kəskinləşdirir. Bir daha vurğulayırıq ki, N.Paşinyan bu günlərdə qondarma qurumun "müstəqilliyinin ildönümü"nə dair müraciəti ilə danışıqlar prosesini məhv edib".

Qərbi Azərbaycan İcması qeyd edib ki, Ermənistan öz ordusunun qalıqlarını tam olaraq Azərbaycanın suveren ərazilərindən çıxarmalı, Azərbaycanın daxili işlərinə kobud müdaxilədən əl çəkməlidir. Qarabağda yaşayan erməni sakinlərə dialoq təklifi ünvanlayan Azərbaycandan ibrət götürərək bizim öz dədə-baba yurdlarımıza qayıdışımızla bağlı Qərbi Azərbaycan İcması ilə təmaslara başlamalıdır.

Həm separatçı rejimdə cərəyan edən prosesləri, həm də Ermənistandan səslənən bəyanatları təhlil etdikdə bu qənaətə gəlmək olur ki, haylar sülh müqaviləsi imzalamaqdan hələ xeyli uzaqdırlar. Görünür, ermənilərin reallığı bir daha dərk etmələri üçün "dəmir yumruğa" ehtiyacı var.

*Səxavət NAZİMOĞLU*
*XQ*

### EKSPERT RƏYİ



**ZAUR MƏMMƏDOV, Dövlət İdarəçilik Akademiyasının müşaviri, politoloq**

– Qarabağın ermənilər yaşayan hissəsindəki rejim bundan sonra öz ömrünü uzun müddət davam etdirə bilməyəcək. Əgər kimsə oradakı ermənilərin bütün məsuliyyətini öz üzərinə götürmək istəyirsə, başa düşməlidir ki, Azərbaycan cəmiyyətinə reinteqrasiya labüddür və heç bir digər məsələdən söhbət gedə bilməz.

Bugünlərdə Xarici işlər naziri Ceyhun Bayramov da müsahibə zamanı bildirib ki, dialoqdan imtina edənlər, onlara mesaj göndərə biləcək və hər hansı vədlər verəcək üçüncü gücələrin əllərində girov olmadan qurtulmalıdır. Onlar keçmişə nəzər salmalı və nə əldə etdiklərini düşünməlidir. Nazir qeyd edib ki, yeganə yol dialoq və Azərbaycanın tərkibində öz gələcəyini müzakirə etməkdir. Başqa yol yoxdur, çünki qalan bütün variantlar qeyri-legitimdir. Bu, bizim qırmızı xəttimizdir.

Bundan sonra Azərbaycanın ərazisində heç bir boz zona olmayacaq. Artıq bunu beynəlxalq ictimaiyyət də bilir. Təsadüfi deyil ki, beynəlxalq ictimaiyyətin reaksiyası həm Ermənistanı, həm də separatçıları qane etmir. Onlar beynəlxalq ictimaiyyətdən Azərbaycana münasibətdə fərqli mövqe nümayiş etdirməyi xahiş edirlər. Lakin başa düşməlidirlər ki, Qarabağın Azərbaycan ərazisi olması reallığı ilə hamı barışıb, bunu hər kəs qəbul edir və separatçıların köhnə istəkləri artıq baş tutmayacaq. Ermənistandan fərqli olaraq, Azərbaycan öz mövqeyində sabitdir.



# Məhəlli sulardan okeanlara...

## Xalqımız Heydər Əliyev siyasi kursunun 30 illik təntənəsini yaşayır

*Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan–Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli ulu öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.*

**Prezident İlham Əliyevin Azərbaycanda 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında sərəncamından**
**Bakı, 29 sentyabr 2022-ci il**

**Bu sərlövhə bəlkə də iqtisadçı oxucularımızda və ya iqtisadiyyatdan yazan həmkarlarımızda elə fikir yaradacaq ki, sanki biz dəniz, naviqasiya, gəmiçilik məsələlərindən söhbət açmaq istəyirik. Amma elə deyil. Məqsədimiz ötən əsrin doxsanıncı illərinin əvvəllərində müstəqilliyi itirilməkdə olan, ancaq "məhəlli sularda üzməyi" bacaran, səsini heç kəsin eşitmədiyi, üzləşdiyi müsibətlərə görə etdiyi fəryadlara kiminsə cavab vermədiyi Azərbaycanın artıq dünya okeanlarının ənginliklərində üzə bilməsindən gedir.**

O zaman səsimizi ancaq özümüz eşidirdik, indi dünya bizə qulaq asır. O zaman dost deyəndə ancaq Türkiyəni düşünürdük. İndi Avropa İttifaqının 9 üzvü Azərbaycanın strateji tərəfdaşıdır. O zaman BMT sessiyalarında bizə dəstək verənləri saymaq üçün bir əlin barmaqlarının hamısı bükülmürdü. İndi sırasında 120 dövlət olan Qoşulmama Hərəkatının üzvləri Azərbaycanın iştirak etmədiyi tədbirlərdə də onun haqlı mövqeyini dəstəkləyirlər. O zaman liderimiz "sərhədləri bağlayaraq" ölkəni inkişaf etdirmək istəyirdi. Ozamankı Azərbaycan siyasətçilərinin "Türkün türkdən başqa dostu yoxdur" ifadəsinə görə qonşularımız və digər ölkələr bizimlə əməkdaşlıqdan imtina edirdilər. İndi isə Azərbaycanın qapıları hamının üzünə açıq olduğu kimi, bütün dövlətlərin qapısı da bizim üzümüzə açıqdır.

Bu reallıqları Heydər Əliyev siyasi kursunun icra edilməsi nəticəsində qazanmışıq. Məmnunuq ki, xalqımız Heydər Əliyev siyasi kursunun otuz illik nəticələrinin təntənəsini yaşayır. Həmin nəticələr arasında dövlət müstəqilliyimizin əbədiləşdirilməsi də var, xalq-iqtidar birliyinin sarsılmaz qalaya çevrilməsi də, torpaqlarımızın otuz illik işğalına son qoyulması da, Şuşa Bəyannaməsinin imzalanması da, Laçın – Xankəndi yolunda nəzarət – buraxılış məntəqəsinin yaradılması da. Xatırladaq ki, Prezident İlham Əliyev həmin keçid məntəqəsinin yaradılmasını və oradan keçən hər kəsin sənədlərinin yoxlanılmasını bizim ən böyük uğurlarımızdan biri kimi qəbul edir.

... Son günlər rəsmi Bakının ünvanına gələn çoxsaylı telefon zəngləri, bəzi tanınmış mətbuat vasitələrinin Azərbaycanın uğurlarını qəbul edə bilməyən siyasi qüvvələrin ruporuna çevrilməsi, guya, kimlərisə mühasirədə saxlamağımız haqqında yayılan uydurma və cəfəngiyyatlar Odlar yurdu qayasından bir toz da qopara bilmir.

Amerika Birləşmiş Ştatlarında yaşayan erməni diasporunun, Ağ evdə, Dövlət Departamentində və Pentaqonda kök salmış erməni lobbiçilərinin, eləcə də, həmin ölkədəki ikili standartdan əl çəkə bilməyən bəzi siyasətçilərin təzyiqlərinə dözməyən Ağ ev rəsmiləri Azərbaycandan xahiş edirlər ki, regiondakı problemlərin həlli zamanı ermənilərin maraqları da nəzərə alınsın. Otuz il zərərdidə kimi yaşamış və dünyanın gözü qarşısında olan erməni vəhşiliklərinə bir neçə dost ölkə istisna olmaqla, hamıdan biganəlik görmüş Azərbaycan okeanın o tayından gələn çağırışlara olduqca aydın və konkret cavab verir: "Bizim Azərbaycanın ərazi bütövlüyünün tam bərpa edilməsindən, dövlətimizin mənafelərini, xalqımızın maraqlarını təmin etməkdən başqa heç bir məqsədimiz yoxdur. Ermənilər özləri öz başlarını bəlaya salıblar!" ABŞ kimi qüdrətli dövlətin rəsmilərinə bütün bunları aydın şəkildə demək üçün dövlətçilikdə Heydər Əliyev ənənəsi, idarəçilikdə isə İlham Əliyev qətiyyəti olmalıdır.

Fransa prezidentinin və onun siyasi komandasına daxil olanların Azərbaycana qarşı apardığı məkrli təbliğatın və iyrənc ssenarilərinin heç bir nəticə vermədiyini və ya verməyəcəyini artıq hamı bilir və görür. Rəsmi Parisin Avropanın o biri başından bizim ərazimizə – Laçın dəhlizinə "humanitar yük" adı ilə yürüş təşkil etməsi də bir nəticə vermədi, Paris merinin Ermənistanda tökdüyü göz yaşları da. Həmin riyakarlıq və qərəzçilik Azərbaycanı haqq yolundan döndərə bilmədi və döndərə bilməyəcək. Çünki bizim dövlətin siyasi kursu Heydər Əliyev müdrikliyinin məhsuludur.

Ötən il fevralın 22-də Moskvada imzalanmış "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" bu şimal qonşumuzla münasibətlərin normal məcrada davam etdirilməsinə zəmin yaratmışdır. Ancaq Rusiyada – hətta bəzi dövlət qurumlarını təmsil edənlərin daxil olduğu ermənipərəst qüvvələr Azərbaycana qarşı açıq düşmənçilik mövqeyində dayanırlar. Onların bu həyasızlığı İrəvana üç qara quruşluq da olsa, səmərə vermir. Bundan sonra da verməyəcək. Çünki həmin bədxah dairələr öz qarşılarında Heydər Əliyev siyasətini və diplomatiyasını uğurla davam etdirən İlham Əliyevin qətiyyətini görürlər.

Azərbaycanın Pakistanla dostluq və tərəfdaşlıq etməsindən qıcıqlanan Hindistanın və Qarabağın erməni işğalından azad edilməsini özü üçün olduqca böyük maddi itki hesab edən İranın davamlı şəkildə işğalçı ölkəni silahlandırması da Azərbaycana heç bir təsir edə bilmir və bilməyəcək də. Çünki Azərbaycan Ordusu artıq nəinki 1993-cü ildəki, hətta, 2020-ci ildəki ordumuzdan da qat-qat üstündür. Silahlı qüvvələrimizin maddi-texniki bazası müasir və mükəmməl, şəxsi heyətimiz isə daha peşəkar və daha vətənpərvərdir. Elə ona görə də Hindistan və İran mütəxəssisləri Ermənistana göndərdikləri silahları Bakıdakı Hərbi Qənimətlər Parkında görə bilərlər.

Bəli, bu gün Azərbaycan dövləti qüdrətli, Silahlı Qüvvələrimiz güclü, liderimiz qətiyyətli, xalqımız isə dövlət ilə həmrəydir. Cənab Prezidentin dediyi kimi, bu gün heç kəs bizi öz yolumuzdan döndərə bilməz.

O ki qaldı, bu yazının sərlövhəsinə, xatırladaq ki, məhəlli sular , yəni hər bir suveren dövlətin ərazisindəki su hövzəsi sahilindən okeana (dənizə) doğru 12 dəniz mili – təxminən 25 kilometr – məsafədə olan sulara deyilir. Bu sularda dövlətin tam suverenliyi tanınır. Çox təəssüf ki, müstəqilliyin ilk illərində Azərbaycan ancaq həmin lokal məkanda "üzə" bilirdi. İndi isə biz dünyanın istənilən ünvanında "lövbər2 salır, lazım olan ünvanların hamısına doğru "üzə" bilirik. Bu xoşbəxtliyi bizə Heydər Əliyev siyasi kursu bəxş etmişdir.

Yeri gəlmişkən, Prezident İlham Əliyev bu il mayın 10-da – ulu öndər Heydər Əliyevin 100 illiyi münasibətilə Şuşadan Azərbaycan xalqına ünvanladığı müraciətdə demişdir ki, ulu öndərin Azərbaycan xalqı qarşısında xidmətləri misilsizdir və biz – onun davamçıları onun yolu ilə gedirik: "2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə etimad göstərilərsə, mən Heydər Əliyev siyasətinə sadiq qalacağam. Azərbaycan xalqı mənə inandı və mən də sözümdə durmuşam və duracağam. 2003-cü ildən bu günə qədər 20 il keçib. Bu 20 il sürətli inkişaf və tərəqqi illəri olmuşdur. Uzun illər bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf edəcək"

Dövlət başçımız xatırladır ki, bizim uzunmüddətli strategiyamız çox aydındır və daxili resurslara hesablanıb. Azərbaycan ulu öndərin yolu ilə gedərək öz dövlət müstəqilliyini daha da möhkəmləndirib. Bu gün, sözün əsl mənasında, müstəqil xarici və daxili siyasət apara bilən ölkələrin sayı dünyada çox məhduddur: "Azərbaycan o ölkələrdəndir ki, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Çünki güclü iradəmiz var, güclü ordumuz var və eyni zamanda, güclü imkanlarımız var. Maliyyə resurslarımız, maddi vəziyyətimiz imkan verir ki, biz ancaq öz daxili resurslarımız hesabına yaşayaq və yaşayırıq, daxili resurslar hesabına Qarabağı yenidən qururuq, Zəngəzuru yenidən qururuq".

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

# Ulu öndərə həsr olunmuş virtual kitabxana

**Hüquq və İnsan Haqları İnstitutu BMT-nin İnkişaf Proqramının dəstəyi ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Hüquq və insan haqları virtual kitabxanası" yaradıb.**




İnsan haqları sahəsində geniş tədqiqatların aparıldığı, dərs vəsaitlərinin, monoqrafiyaların yazıldığı dövrdə böyük izləyici kütləsi toplayan bu kitabxana qısa zamanda ziyalıların, hüquqşünasların, cəmiyyətin digər təbəqələrinin də diqqətini cəlb edib. Elektron kataloq davamlı olaraq zənginləşdirilir.

Hələlik kitabxanada 243 kitab və vəsait toplanıb. Onlardan 77-i məqalə, 9-u hesabat, 5-i hüquqi sənəd nümunələridir. Mənbəyə indiyədək 31 mindən çox giriş qeydə alınıb.

İnstitutdan XQ-yə bildirilib ki, ən çox yüklənən monoqrafiyanın müəllifi hüquq üzrə elmlər doktoru, professor Şəhla Səmədovadır. Onun "Cinayət hüququnun problemləri: cinayətlərin təsnifatı, cinayət məsuliyyətinin diferensiallaşdırılması və sanksiyaların qurulması" adlı monoqrafiyası sahənin mürəkkəb problemlərindən bəhs edir. Professorun müəllifi olduğu "Azərbaycan Respublikasının Cinayət hüququ" dərsliyi də ən çox izlənilən ədəbiyyat sırasındadır.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasında nəşr olunan "Kommersiya (sahibkarlıq) hüququ. Mühazirə mətnləri", Bakı Dövlət Universiteti, Dövlət Gömrük Komitəsinin Akademiyası, Hüquq və İnsan Haqları İnstitutunun birgə ərsəyə gətirdiyi "Əməliyyat-axtarış fəaliyyətinin əsasları (elmi-nəzəri, hüquqi əsasları və təcrübi aspektləri)" və Daxili İşlər Nazirliyi Polis Akademiyasının hazırladığı "Ailə hüququ" adlı dərs vəsaitləri maraqla izlənilir.

Virtual kitabxana sayt ziyarətçilərinə hüquq və insan haqları istiqamətində xidmət etməklə yanaşı, hüquqi təbliğat və maarifləndirmə mövzularında elektron kitab mütaliəsinin populyarlaşdırılmasına da kömək edir. Virtual kitabxana hər bir vətəndaş üçün əlçatandır– keçid linki: https://lhri.az/az/library

***XQ***

# Heydər Əliyev Fondunun növbəti məktəb töhfəsi

**Yeni tədris ilində Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir və bərpa olunan, eləcə də yeni inşa edilən 22 təhsil müəssisəsi istifadəyə veriləcək. Belə ki, 15 Sentyabr - Bilik Günü ərəfəsində 19 məktəb və 3 məktəbəqədər müəssisə Bakıda və regionlarda müəllim və şagirdlərə hədiyyə edilmiş olacaq.**




Bu təhsil ocaqlarının mövcud binaları istismara yararsız olduğundan Heydər Əliyev Fondu tərəfindən 17 orta məktəb və 2 bağça üçün yeni bina inşa olunub, eləcə də 3 məktəb və məktəbəqədər müəssisənin binası əsaslı təmir edilib.

Bununla da Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu dövlətin təhsil sahəsində apardığı siyasətə dəstək göstərərək gənc nəslin daha bilikli yetişməsinə və keyfiyyətli təhsil almalarına öz töhfəsini vermiş olur.

Heydər Əliyev Fondu yarandığı ilk gündən təhsil sahəsində müxtəlif layihə və proqramlar həyata keçirir. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının əsas məqsədi təhsil sahəsində mövcud olan problemlərin həllinə kömək etmək, ölkə miqyasında müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaq, tədrisin səviyyəsinə bilavasitə təsir edən problemləri aradan qaldırmaqdır. Fondun "Təhsilə dəstək" proqramı çərçivəsində isə tədrisin keyfiyyətini yüksəltmək məqsədi ilə təhsil müəssisələri əyani vəsaitlərlə təmin olunur.




**Dünən Qax rayon Heydər Əliyev Mərkəzində "Heydər Əliyev və Azərbaycan" mövzusunda regional elmi konfrans keçirilib. Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə keçirilən konfransda şimal-qərb bölgəsi rayonlarının mədəniyyət və kitabxana işçiləri iştirak ediblər.**

# Ümummilli liderin zəngin mənəvi irsi

Qax Mərkəzləşdirilmiş Kitabxana Sisteminin əməkdaşı Aygün Rəhimli, rayon MKS-nin direktoru Güllü Əhmədova, Şəki MKS-nin direktor əvəzi Kəmalə İsmayılova, Oğuz MKS-nin direktor əvəzi Nəzakət Qasımova, Qəbələ MKS-nin direktor müavini Rəna İbrahimova, Balakən MKS-nin direktoru Məryəm Tağıyeva, Zaqatala MKS-nin direktor əvəzi Sevda Rəhimova, Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsinin rəisi vəzifəsi səlahiyyətlərini müvəqqəti icra edən Nargilə Qafarova çıxış edərək, Ulu öndərin zəngin irsinin öyrənilməsi və təbliği baxımından belə tədbirlərin əhəmiyyətini vurğulayıblar.

***XQ***

# Prezidentin köməkçisi: Azərbaycanda antisemitizm halı yaşanmayıb

**“Azərbaycan iki ölkə arasında münasibətlərin normallaşması məsələsində İran tərəfdən müsbət ismarışlar alır”.**



XQ xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İsrailin beynəlxalq “i24NEWS” telekanalına müsahibəsində deyib.

Onun sözlərinə görə, İran qonşu ölkədir və Azərbaycanın bütün qonşularla yaxşı münasibət qurması çox vacibdir: "Ölkənin yürütdüyü siyasət Azərbaycanın həmsərhəd olduğu bütün ölkələrlə sabit və qarşılıqlı faydalı əlaqələr saxlamaqdan ibarətdir”.

“İranla Azərbaycan arasında müəyyən anlaşılmazlıqlar olub. Amma biz diplomatik kanallardan və dialoqdan istifadə edərək bunu həll etməyə çalışırıq və İran tərəfdən də müsbət siqnallar alırıq”, – o əlavə edib.

Prezidentin köməkçisi vurğulayıb ki, Azərbaycan bu səhifəni çevirmək, bütövlükdə regionda, həmçinin iki ölkə arasında əməkdaşlıq və dialoq üçün daha əlverişli mühit yaratmaq üçün iranlı həmkarları ilə diplomatik təmasları davam etdirir.

* * *

“Dostlarımızın da öz aralarında dost olmasını istərdik”.

XQ xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İsrailin “i24news” telekanalına müsahibəsində Türkiyə–İsrail münasibətlərindən danışarkən deyib.

Onun sözlərinə görə, Azərbaycan iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsi prosesinə öz töhfəsini verib. O, bu məqsədlər üçün diplomatiyanın ən yaxşı alət olduğunu vurğulayıb: “Azərbaycan Türkiyə və İsrail arasında dostluq və qarşılıqlı anlaşmanı görməkdən məmnundur”.

*XQ*

# Şimali Kipr rəhbəri Azərbaycan Prezidentinə təşəkkür edib

**Azərbaycan Prezidenti İlham Əliyevin Bakıda keçirilən Türk Dövlətləri Təşkilatının toplantısında Şimali Kipr Türk Respublikasının (ŞKTC) bayrağının Azərbaycanda keçiriləcək tədbirlərdə dalğalanacağını bəyan etməsindən sonra bu ölkənin Prezidenti Ersin Tatar Azərbaycan Prezidentinə təşəkkür edib.**

Bu barədə Şimali Kipr Türk Respublikası Prezidentinin rəsmi saytı məlumat yayıb.

“Azərbaycan Prezidenti İlham Əliyevin Bakıda keçirilən Türk Dövlətləri Təşkilatının toplantısında Şimali Kipr Türk Respublikasının bayrağının Azərbaycanda keçirilən tədbirlərdə dalğalanacağı barədə bəyanatından məmnun oldum.

Şərqi Aralıq dənizində bir millət, üç dövlət anlayışı ilə bir türk dövləti olan ŞKTC bu anlayışla varlığını davam etdirərkən, Azərbaycanla aramızdakı könül birliyinin, dəyərlərin və eyni millətin ayrılmaz hissəsi olaraq münasibətlərimizin getdikcə dərinləşməsi ən böyük arzumdur.

Cənab Prezident Əliyevə verdiyi bəyanatlara görə təşəkkür edir və ümid edirəm ki, qardaşlığımız, əməkdaşlığımız əbədi olacaq”, – Ersin Tatar bildirib.

*XQ*

# Azərbaycan və Moldova nazirlərinin Çin görüşü

**Mədəniyyət naziri Adil Kərimlinin rəhbərliyi ilə nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri davam edir.**

Nazirin Moldova Respublikasının mədəniyyət naziri Sergiu Prodan ilə görüşündə iki ölkə arasında mədəni əlaqələrin mövcud vəziyyətinə nəzər salınıb, bu sahədə gələcək əməkdaşlığın daha geniş potensiala malik olduğu vurğulanıb. Sergiu Prodan gələn il Azərbaycanda Moldova mədəniyyəti günlərinin keçirilməsi təklifi ilə çıxış edib.

*XQ*

# Türkiyənin daxili işlər orqanları ilə faydalı işbirliyi

**Dünən daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov ölkəmizdə səfərdə olan Türkiyənin daxili işlər naziri Ali Yerlikayanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazir Azərbaycanda mövcud olan sabitliyin əhəmiyyətini xüsusi qeyd edərək bildirib ki, asayişin və təhlükəsizliyin etibarlı qorunması vətəndaşlarımızın, xarici investorların, o cümlədən türkiyəli iş adamlarının ölkəmizin iqtisadiyyatına sərmayə qoymalarına və əmin-amanlıq şəraitində yaşayıb fəaliyyət göstərmələrinə əlverişli şərait yaradıb.

Nazir Vilayət Eyvazov Azərbaycan Polisinin və DİN-in Daxili Qoşunlarının respublikada ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizədə əldə etdiyi müsbət nəticələri də diqqətə çatdıraraq fəaliyyətin təkmilləşdirilməsinə Türkiyə Daxili İşlər Nazirliyinin, o cümlədən Jandarm Qüvvələrinin xüsusi rolunu və xidmətlərini məmnunluqla vurğulayıb və Ali Yerlikayanın şəxsində Türkiyə Daxili İşlər Nazirliyinin, o cümlədən Jandarm Qüvvələrinin rəhbərliyinə təşəkkür edib.

Türkiyənin daxili işlər naziri Ali Yerlikaya respublikamıza səfərindən, dost və qardaş ölkələrimizin bölgədə əmin-amanlığa və sabitliyin yaradılmasına ciddi əngəl olan qlobal problemlərə, o cümlədən mütəşəkkil cinayətkarlığın bütün təzahürlərinə qarşı hər zaman vahid mövqedən və birgə səylərlə çıxış etmələrindən, Azərbaycanın sürətli inkişafından, ölkəmizdə yaradılmış sabitlikdən məmnunluğunu ifadə edib.

O, həmçinin iki ölkənin müvafiq orqanları arasındakı faydalı işbirliyini yüksək qiymətləndirib, əlaqələrin inkişafı üçün bundan sonra da səylərini əsirgəməyəcəklərini, əməkdaşlığın, təcrübə mübadiləsinin xalqlarımızın və ölkələrimizin mənafelərinə xidmət etdiyini vurğulayıb.

*XQ*

# Şeyxülislam “Böyük iyirmiliy”in Dinlərarası Forumunda



**Sentyabrın 5-6-da Hindistanın Pune şəhərində “Böyük iyirmiliy”in (G20) Dinlərarası forumu keçirilib. Məclisdə Azərbaycanı Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov təmsil ediblər.**

QMİ-nin mətbuat xidmətindən XQ-yə bildirilib ki, Azərbaycan dövlətinin dinlər və mədəniyyətlərarası dialoqda oynadığı mühüm rol, Prezident İlham Əliyevin bu istiqamətdəki qlobal təşəbbüsləri ölkəmizin “Böyük iyirmilik” kimi önəmli beynəlxalq platformada mütəmadi iştirakçı olmasına səbəb olub. Belə ki, G20 çərçivəsində Azərbaycan özünün multikulturalizm modelini beynəlxalq müstəvidə sülh içində birgəyaşayışın uğurlu örnəyi kimi təqdim etməkdə davam edir.

Şeyxülislam Allahşükür Paşazadə forumun açılış plenar iclasında çıxış edərək bildirib: “Bugünkü forumun əsas mövzuları olan iqlim dəyişikliyi, ekosistemin pozulması, qida və su çatışmazlığı, müharibələr və nüvə təhdidi hər gün bəşəriyyəti, özəlliklə gələcəyimiz olan uşaqların təbii insani hüquqlarını təhdid edir. Biz müharibə dəhşətlərini və fəlakətlərini yaşamışıq. Təmsil etdiyim Azərbaycan tolerantlıq, multikulturalizm diyarı olaraq mədəniyyətlər arasında dialoq və səmərəli əməkdaşlıq imkanlarının yaradılmasında aparıcı və müsbət rol oynayır. Bu, bizim dövlətimizin milli siyasəti və dini dəyərlərə olan ehtiramın göstəricisidir”.

Forum əsnasında şeyxülislam Allahşükür Paşazadə yerli və xarici dini liderlər və ictimai xadimlərlə, o cümlədən G20 dinlərarası forumunun prezidenti Kol Durham, Amrita Vişva Vidyapitam dini təşkilatının ruhani lideri Svami Amritasvarupananda Puri, Vahid Qlobal Forumun sədri və Hindistan Milli Konqresinin milli katibi Dalbir Sinqx, Vasai Arxiyepiskopu Feliks Maçado və Pune Ümumdünya Sülh Universitetinin təsisçisi, professor Vişvanat Karad ilə ikitərəfli görüşlər keçirib.

# Kənd təsərrüfatı naziri Özbəkistanda



**Kənd təsərrüfatı naziri Məcnun Məmmədov Özbəkistanda rəsmi səfər çərçivəsində bu ölkənin kənd təsərrüfatı naziri Əziz Voitovla görüşüb.**

Söhbətdə Azərbaycan və Özbəkistan prezidentlərinin qarşılıqlı rəsmi səfərlər zamanı iki ölkə arasında əməkdaşlığın gücləndirilməsi ilə bağlı qarşıya qoyduqları tapşırıqların yerinə yetirilməsi, əməkdaşlığın gələcək fəaliyyət istiqamətləri ətrafında müzakirələr aparılıb. Bildirilib ki, iki ölkə arasında bütün sahələrdə əməkdaşlıq dinamik inkişaf edir. Hər iki ölkə bütün sahələrdə əməkdaşlığı gücləndirmək istiqamətində təşəbbüsləri dəstəkləyir.

Azərbaycanla Özbəkistan arasında hazırlanan Kənd Təsərrüfatı sahəsində Əməkdaşlıq üzrə Yol Xəritəsinin icrası ətraflı müzakirə olunub. Azərbaycanla Özbəkistan arasında kənd təsərrüfatının ipəkçilik, fındıqçılıq, şərabçılıq, kənd təsərrüfatı maşınqayırması və digər sahələrdə ən qısa zamanda konkret addımların atılması ilə bağlı razılıq əldə olunub.

Eyni zamanda, görüşdə sentyabrın 26-da Bakıda keçiriləcək Türk Dövlətləri Təşkilatının Kənd Təsərrüfatı Nazirlərinin 2-ci toplantısı və “Aqrobiznes forumu” tədbiri ilə bağlı məsələlər də müzakirə olunub.

*XQ*

# Dünya QHT fəalları Ermənistanın saxta təbliğatını pisləyir

**“Dünyanın 27 ölkəsindən olan bir qrup xarici QHT, vətəndaş cəmiyyəti təmsilçiləri “Dünya Qafqazda sülh üçün” adlı beynəlxalq kampaniya başladıb. Kampaniya yeni elan olunmasına baxmayaraq, ciddi rezonans və dəstək qazanıb, artıq dünyanın müxtəlif ölkələrindən müraciətə qoşulan vətəndaş cəmiyyəti təmsilçilərinin sayı 500-ü keçib.**

“Jotform” beynəlxalq platformasında yerləşdirilən müraciətdə Laçın yolunun, guya, bağlı olması barədə yayılmış dezinformasiyaların, bu istiqamətdə aparılan qərəzli kampaniyaların Cənubi Qafqazda sülh quruculuğu prosesinə zərbə vurduğu bildirilir, bundan dərin narahatlıq ifadə edilir. Müraciətdə Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərə tövsiyə edilir ki, Ermənistanın və qondarma rejimin qalıqlarının təxribatlarına, onların siyasi manipulyasiyalarına uymasınlar, Ağdam-Xankəndi yolu sülh üçün açılsın.

Müraciətə qoşulanlar hesab edir ki, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinləri Azərbaycan dövlətinin və vətəndaş cəmiyyətinin sülh naminə müsbət mesajlarını düzgün qiymətləndirməyi bacarmalıdır. Təəssüf hissi ilə qeyd edilir ki, Qızıl Aypara Cəmiyyətinin yardım gətirən yük maşınları yaradılan süni maneə nəticəsində Xankəndi istiqamətində hərəkətinə davam edə bilmir. Kampaniya feyk məlumatlar əsasın, guya, Qarabağda yaşayan erməni sakinlərin “humanitar böhran”la üzləşməsi barədə Azərbaycan dövlətinin ünvanına saxta ittihamlar irəli sürənləri də qınayır və onları reallıqları görməyə çağırır.

*XQ*

# Qərbi Azərbaycan İcması qərəz və yalanı ittiham edir

**Qərbi Azərbaycan İcması Ermənistanın baş naziri Nikol Paşinyanın 2023-cü il sentyabrın 7-də verdiyi anti-Azərbaycan açıqlamalarla bağlı bəyanat yayıb.**

Sənəddə bildirilir ki, Ermənistanın baş naziri Nikol Paşinyanın verdiyi son açıqlamalar bir daha onu göstərir ki, rəsmi İrəvanın Azərbaycanla sülh müqaviləsini imzalamaq, ölkəmizə qarşı ərazi iddiasına son vermək niyyəti yoxdur. Ermənistan yalnız sözdə Azərbaycanın ərazi bütövlüyünü tanıyıb.

Açıqlamada sonra qeyd edilir ki, Ermənistan Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü o halda tanıyır ki, “beynəlxalq mexanizm çərçivəsində Bakı–Xankəndi danışıqları vasitəsilə Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi təmin edilsin. Sonda tələb edilir ki, Ermənistan öz ordusunun qalıqlarını tam olaraq Azərbaycanın suveren ərazilərindən çıxarmalı, ölkəmizin daxili işlərinə kobud müdaxilədən əl çəkməlidir: “Qarabağda yaşayan erməni sakinlərə dialoq təklifi ünvanlayan Azərbaycandan ibrət götürərək, bizim öz dədə-baba yurdlarımıza qayıdışımızla bağlı Qərbi Azərbaycan İcması ilə təmaslara başlamalıdır”.

***

Qərbi Azərbaycan İcması ABŞ Konqresinin Tom Lantos Komissiyasının ölkəmizə qarşı səsləndirdiyi ittihamlara da cavab verib.

Bildirilib ki, sentyabrın 6-da ABŞ Konqresinin Tom Lantos İnsan Hüquqları Komissiyasında Azərbaycan əleyhinə dinləmələr təşkil olunub və hazırda bəzi Qərb ölkələrində tüğyan edən azərbaycanofobiya yarışında xüsusi canfəşanlıq göstərən Luis Okampo tərəfindən ölkəmizə qarşı bir sıra hədyanlar səsləndirilib. Bu, bir daha Tom Lantos Komissiyasının riyakarlığını, insan hüquqları mövzusunu istismar edərək onu siyasiləşdirməsini və bir sıra dairələr tərəfindən Azərbaycana qarşı aparılan düşmənçilik kampaniyasında yer almasını göstərir.

Açıqlamanın sonunda Tom Lantos Komissiyasının başqa ölkələrin daxili işlərinə kobud müdaxilə etməməsinə çağırış səslənir.

*XQ*

# Berlində Azərbaycan xalçaları sərgisi

**Azərbaycanın Almaniyadakı səfirliyi və “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin (ASC) birgə təşkilatçılığı ilə Berlində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzində Azərbaycan xalçalarının sərgisi təşkil edilib.**

Ekspozisiyanın açılışı mərasimində Almaniyanın dövlət qurumlarının təmsilçiləri, xarici ölkələrin səfirləri, KİV nümayəndələri, elm və mədəniyyət xadimləri, eləcə də Almaniyada yaşayan Azərbaycan, türk və digər icmaların üzvləri iştirak ediblər.

Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev Azərbaycanda xalçaçılıq sənətinin qədim tarixə malik olduğunu, usta xalçaçıların bu sənətin incəliklərini gənc nəslə uğurla ötürdüyünü, ölkə rəhbərliyinin bu sənətin inkişafına mühüm əhəmiyyət verdiyini qeyd edib.“Azərxalça” ASC-nin İdarə Heyətinin sədri, Əməkdar incəsənət xadimi Emin Məmmədov Azərbaycan xalq tətbiqi sənəti və onun bir qolu olan xalçaçılığın xalqımızın milli mədəniyyəti tarixində özünəməxsus yer tutduğunu vurğulayıb, nümayiş olunan Qarabağ, Qazax, Naxçıvan, Şirvan xalçaçılıq məktəbləri nümunələrindən bəhs edib.

Almaniyanın Azərbaycandakı səfiri Ralf Horleman Bakıdakı fəaliyyəti dövründə Azərbaycanda xalçaçılıq sənəti ilə bağlı əldə etdiyi təəssüratı bölüşüb.

Sərgi zamanı qonaqlar üçün əsl Qarabağ xalçasının toxunma prosesi də nümayiş olunub. Sərgi iştirakçılarına xalçada öz ilmələrini atmaq imkanı yaradılıb. Qarabağ xalçasının toxunma prosesində iştirak edən hər kəsə “Azərxalça” ASC-nin xüsusi sertifikatı da təqdim olunub. İştirakçılara Heydər Əliyev Fondunun Azərbaycanda xalçaçılıq sənəti barədə hazırladığı kitablar və broşürlər paylanılıb, Azərbaycan xalçaçılıq sənətindən, eləcə də ölkəmizin tanınmış xalça toxucularından bəhs edən film nümayiş olunub.

Sərgi sentyabrın sonunadək avropalı xalçasevərlər üçün açıq olacaq.

*XQ*

# Ölkəmiz regional nəqliyyat qovşağıdır

## Bakıda keçiriləcək beynəlxalq logistik forum bu gerçəkdən qaynaqlanır



(əvvəli 1-ci səhifədə)

Ölkəmiz hazırda Avrasiya məkanının mühüm logistik mərkəzlərindən biri kimi tanınaraq yeni təşəbbüslər irəli sürməkdə davam edir. Eyni zamanda, İpək Yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal iştirakçısı olan Azərbaycan gerçəkləşdirdiyi genişhəcmli layihələrin nəticəsi olaraq müxtəlif istiqamətlərə tranzit daşımaların səmərəli təşkilinə etibarlı təminat verir.

Forumun baş partnyoru olan "Black and Caspian Freight" şirkətinin direktoru Rəşad Şəkərov mediaya müsahibəsində tədbirin böyük əhəmiyyət daşıdığını vurğulayaraq Azərbaycanın açıq dənizlərə, okeanlara çıxışı olmaması səbəbindən ölkəmizin bütün beynəlxalq nəqliyyat, enerji, kommunikasiya xətlərinin digər dövlətlərin ərazisindən keçdiyini, bununla bağlı, ilk növbədə, Ermənistan istisna olmaqla, qonşu və digər ölkələrlə sıx dostluq münasibətləri yaradıldığını bildirib. Bu da respublikamızın tranzit daşımaları sahəsində uğurlar qazanmasını şərtləndirib və bunun sayəsində bir sıra beynəlxalq layihələr gerçəkləşdirilib. Bu forumda da həmin təşəbbüslərin davamı olacaq yeni beynəlxalq layihələrin müzakirəsi nəzərdə tutulub.

Xatırladaq ki, sözügedən forum keçən il sentyabrın 21-də Türkiyənin İstanbul şəhərində keçirilib. Həmin tədbirdə Xəzər və Qara dəniz ölkələrinin ərazisindən keçən nəqliyyat dəhlizləri və marşrutlarının, logistika infrastrukturunun inkişaf etdirilməsi, gömrük rəsmiləşdirilməsinin və ticarətinin sadələşdirilməsi, rəqəmsallaşdırılması, "Bir pəncərə" mexanizminin yaradılması və s. kimi mövzular müzakirə edilib. Ötən bir il ərzində sadalanan istiqamətlər üzrə müəyyən layihələr gerçəkləşdirilib və belə təşəbbüslərin bundan sonra da həyata keçirilməsi nəzərdə tutulub.

Bütün bunlarla bağlı bəzi məqamlara diqqət yetirək. Əvvəlcə onu deyək ki, Avropa və Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsində önəmli rol oynayan Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolu 2017-ci ildə istifadəyə verilib. Respublikamızın təşəbbüsü ilə inşa edilən bu dəmir yolu vasitəsilə bölgəmizdə və bütövlükdə Avrasiyada yeni nəqliyyat xəritəsi yaradılıb, Azərbaycanın tərəfdaşları tərəfindən ötən müddətdə BTQ dəmir yolundan səmərəli istifadə edilib. Respublikamızın ərazisindən keçən yolların çoxşaxəli olması isə ölkəmizin imkanlarını böyük dərəcədə artırıb.

Şərq–Qərb nəqliyyat dəhlizinin bir hissəsini təşkil edən Bakı–Tbilisi–Qars dəmir yolu nəqliyyatı bu gün yüklərin Avropaya və əks istiqamətə daşınmasında böyük əhəmiyyətə malikdir. Bu polad magistralın fəaliyyəti nəticəsində yol boyunca yerləşən ölkələr arasındakı ticarət dövriyyəsi və qarşılıqlı sərmayə qoyuluşu getdikcə artır, yoldan istifadə edən bütün ölkələr arasındakı əməkdaşlıq dərinləşir. BTQ 3 dövləti əlaqələndirməklə yanaşı, həm də onlarca xalq və ölkə üçün körpü rolunu oynayır.

Ötən il ilk dəfə olaraq BTQ vasitəsilə ixrac yüklərinin nəqlinə də başlanılıb. Belə ki, Azərbaycanda istehsal olunan metal konstruksiyalar Türkiyəyə ixrac olunub. 2017-ci ildə BTQ dəmir yolu ilə 5 min 674 ton yük daşındığı halda, ötən il bu rəqəm 483 min 290 ton, bu ilin ilk 5 ayında isə 182 min 413 ton təşkil edib. Ümumiyyətlə, BTQ dəmiryol marşrutu ilə yük daşımaları magistralın bütün fəaliyyət müddətində 2,4 milyon tondan çox olub.

Bakı Beynəlxalq Dəniz Ticarət Limanı da İpək Yolu layihəsi çərçivəsində reallaşdırılan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun tərkib hissəsi kimi mühüm önəm daşıyır. Cari ilin 7 ayı ərzində bu liman vasitəsilə təkcə Qazaxıstan üzərindən yükdaşımaların həcminin 1 milyon tondan çox artması, belə bir rəqəmin isə 2021-ci ilin analoji dövrünün göstəricisindən 219,1 faiz çox olması bunun bariz ifadəsidir.

Hazırda Qazaxıstan istiqaməti üzrə vaqon aşırılmasının artım tempi 3 dəfəyə yaxınlaşıb. Eyni zamanda, artım tempi bu ölkə marşrutu ilə hərəkət edən TIR aşırılmasında da iki dəfə artıb.

Qazaxıstan istiqamətində 2021-ci ilin 4 ayında təqribən 5 min TEU konteyner aşırılmışdısa, 2022-ci ilin 4 ayında konteyner aşırılması 10 mini keçib. Ekspertlər tərəfindən bu, geosiyasi vəziyyətin dəyişməsinin ilkin simptomlarının nəticəsi kimi dəyərləndirilib.

Bakı Limanı Ələtdə iki əsas nəqliyyat dəhlizinin – Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin kəsişməsində yerləşir. Limanın inkişafı 2 mərhələ üzrədir. 2019-cu ildə birinci mərhələnin inkişafı başa çatdırılıb və sonra bu limanda ümumi yükaşırma imkanı artaraq 15 milyon ton ümumi yük və 100 min TEU-ya qədər konteyner olub.

İkinci mərhələdə isə liman kompleksinin tikintisinin ikinci mərhələsinin başa çatdırılması ilə Bakı Limanının ümumi yükaşırma imkanı artaraq 25 milyon ton ümumi yük və 500 min TEU-ya qədər konteyner olacaq.

Beynəlxalq yükdaşımaların inkişafı ilə bağlı həyata keçirilən layihələr dəniz nəqliyyatında da əlverişli şərait yaradıb. Məhz bunun nəticəsidir ki, cari ilin ilk 6 ayında Azərbaycanda dəniz nəqliyyatı ilə 930 milyon dollar dəyərində 1,4 milyon ton yük daşınıb. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 94,1 faiz və 4 dəfə çoxdur. Hesabat dövründə dəniz nəqliyyatı ilə ixrac olunan yüklərin dəyəri 83 milyon 45 min dollara bərabər olub, 847 milyon dollarlıq yük isə idxal olunub. Son bir ildə ixrac olunan yüklərin həcmi 3,2 dəfə artıb.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətindən verilən məlumata görə, limanda bu ilin I yarısında 3 milyon 539 min tondan çox yük aşırılıb. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 12,5 faiz çoxdur.

***Vaqif BAYRAMOV***
***XQ***

### Ekspert rəyi

**Vəkil HÜSEYNOV**
**iqtisadçı-ekspert**



Prezident İlham Əliyevin ölkəmizin logistika sisteminin inkişafına diqqət və qayğısının nəticəsidir ki, bu gün Azərbaycanın beynəlxalq yükdaşımalarda fəaliyyəti getdikcə genişlənir. Bu, müxtəlif istiqamətlərdə hərəkət edən nəqliyyat vasitələrinin sayının getdikcə artması, mövcud sahədə bazarın şəffaflaşması nəticəsində "kölgə"də işləyən daşıyıcıların qeydiyyata alınması, onların bəzilərinin fəaliyyətinin bərpa edilməsi, bəzilərinin isə daxili bazardan beynəlxalq bazara keçidinin reallaşması ilə bağlıdır. Bundan savayı, yükdaşımalarda qanunvericiliyin təkmilləşdirilməsi də daim diqqət mərkəzində saxlanılır.

Bütün bunların nəticəsidir ki, tarixən İpək Yolunun keçdiyi Azərbaycan ərazisi Avropa və Asiya ölkələrini birləşdirir, strateji iqtisadi-ticari dəhlizlərin qovuşduğu məkan kimi tanınır. Bu coğrafiyada yerləşən respublikamızın nəqliyyat infrastrukturunun yenilənməsi daim diqqətdə saxlanılır, sözügedən istiqamətə böyük məbləğdə investisiyalar yatırılır. Bütün bunlar isə nəqliyyat dəhlizlərinin əsas marşrutlarının kəsişmə qovşaqlarında yerləşən Azərbaycanın logistika baxımından əhəmiyyətini daha da yüksəldir.

Ümumiyyətlə, beynəlxalq və regional nəqliyyat dəhlizlərinin inkişafı da iqtisadiyyatımızın səmərəliliyinin artırılmasına müsbət təsir göstərir. Eyni zamanda, nəqliyyat, infrastruktur və logistika sahələrində birgə layihələr dövlətimizin iqtisadi imkanlarını genişləndirir, əhəmiyyətini artırır.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticəsidir ki, son 10 il ərzində nəqliyyat sektorunda orta illik artım tempi 3,5 faiz təşkil edib, yeni infrastruktur qurulub, özəl investisiyalar artıb. Ölkə regional əhəmiyyətli nəqliyyat-logistika və ticarət qovşağına çevrilib və əsas ticarət marşrutlarından bəhrələnməyin əsası qoyulub. TRASEKA, Şimal–Cənub kimi iri nəqliyyat dəhlizlərinin reallaşdırılması istiqamətində nəhəng infrastruktur layihələri gerçəkləşdirilib.

# İsveçrə də Qarabağa gəlmək istəyir



**Azərbaycan–İsveçrə birgə ticari-iqtisadi komissiyasının fəaliyyəti əlaqələrimizin daha da inkişaf etməsinə imkan yaradacaq. Bunu Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədov İsveçrənin Milli bayramına həsr olunmuş tədbirdə deyib.**

Azərbaycanın İsveçrə şirkətlərinin işğaldan azad olunmuş torpaqların bərpasında iştirak təşəbbüsünü dəstəklədiyini vurğulayan nazir müavini SOCAR-ın İsveçrədə uğurlu fəaliyyətini önə çəkərək iki ölkə arasında iqtisadi əməkdaşlığın genişlənəcəyinə əminliyini ifadə edib.

# Naxçıvanda vergi daxilolmaları 41 faiz artıb

**Bu ilin ötən 8 ayında Naxçıvan Muxtar Respublikasında Dövlət Vergi Xidmətinin xətti ilə büdcəyə 106 milyon manatdan artıq vergi daxil olub. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 41 faiz və ya 31 milyon manat çoxdur.**



Bu dövrdə muxtar respublikada 4 min yeni vergi ödəyicisi qeydiyyata alınıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə qeydiyyata alınan vergi ödəyicilərinin sayı 2,1 dəfə artıb.

# Xarici avtomobillərə yol vergisi necə hesablanacaq?

**Azərbaycanda xarici qeydiyyatı olan nəqliyyat vasitələri üçün yol vergisinin hesablanmasında dəyişiklik edilib.**



Bununla bağlı Baş nazir Əli Əsədov "Dövlət büdcəsinin gəlirlərinin, o cümlədən dövlət büdcəsinin qeyri-neft gəlirlərinin və dövlət büdcəsinin neft gəlirlərinin proqnozlaşdırılması Qaydası"na dəyişiklik edilməsi ilə bağlı qərar imzalayıb.

Qərara əsasən, yol vergisinin hesablamasında avtonəqliyyat vasitələrinin növü, mühərrikin həcmi, oxlarının sayı, yüklə birlikdə ümumi çəkisi, oturacaq yerlərinin sayı və Azərbaycanda qaldığı müddət nəzərə alınacaq. Həmçinin bu zaman respublika ərazisində qət edilən məsafə də diqqətdə saxlanılacaq.

***XQ***

# İslam İnkişaf Bankı ilə əməkdaşlıq genişlənir

**Xəbər verildiyi kimi, Azərbaycanın fəal əməkdaşlıq etdiyi beynəlxalq maliyyə qurumlarından olan İslam İnkişaf Bankı qrupuna daxil olan İnvestisiya və İxrac Kreditlərinin Sığortası üzrə İslam Korporasiyasının rəhbəri Oussama Kaissinin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfərə gəlib.**



Səfər çərçivəsində qonaqlar Azərbaycan Respublikasının Energetika Nazirliyində olublar. Energetika naziri Pərviz Şahbazovla keçirilən görüşdə Azərbaycanla İslam İnkişaf Bankı arasında uğurlu və səmərəli əməkdaşlığın həyata keçirildiyi vurğulanıb, bankın ölkəmizdə müxtəlif sahələrdə, o cümlədən energetika sahəsində həyata keçirdiyi layihələrə verdiyi dəstək yüksək qiymətləndirilib.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"dən irəli gələn strateji hədəflər, işğaldan azad edilmiş ərazilərdə reallaşdırılan layihələr və "yaşıl enerji" zonasının yaradılması, enerji səmərəliliyi, bərpaolunan enerji sahəsinin inkişafı istiqamətində görülən tədbirlər haqqında nümayəndə heyətinin üzvlərinə ətraflı məlumat verilib. Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Xatırladaq ki, İslam İnkişaf Bankı 1973-cü ilin dekabrında Ciddədə keçirilən İslam Əməkdaşlıq Təşkilatına (İƏT) daxil olan ölkələrin maliyyə nazirlərinin konfransında imzalanan Niyyət Bəyannaməsinin nəticəsi olaraq təsis edilib. Bankın yaradılmasında əsas məqsəd yoxsulluğun azaldılması, davamlı iqtisadi artımın təşviq edilməsi və regional inteqrasiyanın dəstəklənməsindən ibarət olub. Dünyanın aparıcı maliyyə-kredit qurumlarından biri olan İslam İnkişaf Bankının üzvləri müsəlman ölkələridir.

Bankın qarşısında duran əsas vəzifə məhz maliyyələşdirməni İslam prinsipləri əsasında aparmaqdır. Belə ki, bank üzv ölkələrin və fərdi müsəlman cəmiyyətlərinin iqtisadi inkişafını və sosial tərəqqisini İslam hüququ əsasında təmin edir. Qurum iqtisadi və sosial inkişaf üçün layihələrin maliyyələşdirilməsi, müəssisələrin xüsusi kapitalında iştirak və ya investitsiya qoyuluşu, qrantların və ssudaların verilməsi şəklində üzv dövlətlərə maliyyə yardımı ayırır.

Qeyd edək ki, əhalisinin mütləq çoxluğunun və əksəriyyətinin müsəlmanlardan ibarət olduğu 56 ölkə İslam İnkişaf Bankının üzvüdür. Üzvlük üçün nəzərdə tutulan başlıca şərt isə iddiaçı qismində çıxış edən dövlətin İƏT-ə üzv olmasıdır.

İslam İnkişaf Bankı ilə Azərbaycan arasındakı əməkdaşlığın əsası ötən əsrin 90-cı illərinin əvvəllərində qoyulub. Belə ki, ölkəmiz tarixi müstəqilliyinə qovuşduqdan sonra beynəlxalq iqtisadi təşkilatlara inteqrasiya istiqamətində ardıcıl siyasət aparmağa başlayıb. Həmin dövrdə İslam İnkişaf Bankı ilə də əməkdaşlıq etmək və ona üzv olmaq müstəqilliyini yenicə qazanmış respublikamızın xarici iqtisadi siyasəti üçün prioritet daşıyırdı. Nəhayət, 1992-ci il iyulun 4-də Azərbaycanın quruma üzv qəbul edilməsi bu beynəlxalq maliyyə qurumu ilə əməkdaşlığın möhkəmləndirilməsi üçün geniş imkanlar yaradıb. Hazırda ölkəmiz İslam İnkişaf Bankında 9,76 milyon ABŞ dolları (ümumi səhm kapitalının 0,13 faizi) pay sahibi olmaqla onun işində yaxından iştirak edir.

Son illər İslam İnkişaf Bankı ilə Azərbaycan arasında əlaqələr sürətlə inkişaf edir. Ötən müddətdə bu beynəlxalq maliyyə qurumu ilə əməkdaşlıq çərçivəsində bankın prinsip və məqsədlərinə uyğun ölkəmizdə bir sıra layihələr icra olunub. Ekspertlərin fikrincə, uzun illərdir ki, Azərbaycan bu səmərəli əməkdaşlıqdan yüksək mənfəət götürür. Belə ki, uğurlu əməkdaşlığın nəticəsi olaraq bank Azərbaycanda həyata keçirilən bir sıra dövlət əhəmiyyətli layihələrə kreditlər ayırır, kiçik qrantlar təqdim edir.

Bankın Azərbaycanda maliyyələşdirdiyi mühüm layihələrə Bakı bərk məişət tullantılarının yandırılması zavodunun, Vəlvələçay-Taxtakörpü kanalının və Cənub İstilik Elektrik Stansiyasının tikintisini, eləcə də Yevlax-Gəncə avtomobil yolunun və Mingəçevir Su Elektrik Stansiyasının yenidən qurulmasını misal çəkmək olar. Bütövlükdə isə, ötən müddətdə dövlət zəmanəti ilə bankdan 18 layihə üzrə kreditlər cəlb edilib və onların icrası uğurla başa çatdırılıb.

Əvvəlki dövrlərdə olduğu kimi, bu ilin ötən dövründə də Azərbaycanla İslam İnkişaf Bankı arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilib, vacib görüşlər keçirilib. Xatırladaq ki, Prezident İlham Əliyevin fevralın 26-da ölkəmizdə səfərdə olan İslam İnkişaf Bankı qrupunun prezidenti Məhəmməd Süleyman Əl-Casiri qəbul edərək Azərbaycanla İslam İnkişaf Bankı arasında həyata keçirilmiş uğurlu və səmərəli əməkdaşlığı yüksək qiymətləndirib.

Ölkəmizin həyata keçirdiyi layihələrə bankın verdiyi dəstəyə görə minnətdarlığını bildirən dövlətimizin başçısı həm regional səviyyədə inkişaf prosesləri, həm də artıq ölkəmizdə icra olunmağa başlanan "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" baxımından əməkdaşlığın gələcək formatının müəyyənləşdirilməsinin zəruriliyini vurğulayıb.

İslam İnkişaf Bankının Azərbaycanın bu təşkilata üzvlüyündən qürur duyduğunu və ölkəmizin həmişə fəal iştirakçı olmaqla bu qurumun fəaliyyətinə böyük töhfə verdiyin bildirən Məhəmməd Süleyman Əl-Casir həyata keçirilən birgə layihələrin Azərbaycanda iqtisadiyyatın, o cümlədən infrastrukturun inkişafı baxımından önəmini qeyd edib.

Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərində İslam İnkişaf Bankının (İİB) Müdirlər Şurasının 48-ci illik toplantısında ölkəmizi iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyevin başçılıq etdiyi nümayəndə heyəti İslam İnkişaf Bankının rəhbəri ilə görüşüb. Görüş zamanı E. Əliyev bankla tərəfdaşlığın genişləndirilməsi, işğaldan azad edilmiş ərazilərimizin bərpası və yenidən qurulmasında əməkdaşlıq, KOB-ların dəstəklənməsi, bankların maliyyələşdirilməsi, enerji və ərzaq təhlükəsizliyi ilə bağlı fikirlərini bildirib. Məhəmməd Süleyman Əl-Casir Azərbaycanın bankın fəaliyyətinə böyük töhfə verdiyini, əməkdaşlığımızın uğurlu tarixə malik olduğunu bildirib. O, həyata keçirilən birgə layihələrin Azərbaycanda iqtisadiyyatın, o cümlədən infrastrukturun inkişafı baxımından önəmini qeyd edib, əməkdaşlığın genişləndirilməsi, xüsusilə ölkəmizin işğaldan azad edilmiş ərazilərində həyata keçiriləcək layihələrdə bankın maraqlı olduğunu bildirib.

Bununla yanaşı, il ərzində keçirilmiş bu qəbildən olan digər görüşlərdə İslam İnkişaf Bankı ilə ölkəmiz arasında əməkdaşlığın mövcud vəziyyəti və gələcək perspektivləri barədə geniş fikir mübadiləsi aparılıb, qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Separatçı rejimin “humanitar böhran” şousu

**Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin bağlanması üçün proses gedir və Avropa İttifaqı, xüsusilə də Prezident Şarl Mişel bu prosesə dəstək göstərir. Lakin Ermənistan bütün dünyada Azərbaycanı günahlandırmaq taktikasını seçərək, sülh prosesində iştirak görüntüsü yaratmağa, status-kvonu saxlamağa və danışıqlarda tərəqqi əldə olunmadığı halda bütün günahı Azərbaycan tərəfinin üzərinə qoymağa çalışır. Lakin Azərbaycan tərəfi sülh prosesinə sadiqdir, Ermənistana sülh müqaviləsi, sərhədlərin delimitasiyası və kommunikasiyaların yenidən açılmasını təklif edib. Hansısa güzəştə heç bir vəchlə razı olmayan və Azərbaycanın suveren ərazisində fəaliyyət göstərən separatçı qurum hazırkı humanitar böhranın əsas günahkarıdır. Onlar Azərbaycan və digər təşkilatların əraziyə humanitar yardım çatdırmasının qarşısını alan da məhz həmin separatçılardır.**



Bu fikirlər Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovun Almaniyanın “Deutsche Welle“ telekanalı üçün müsahibəsində yer alıb. Azərbaycanın Qarabağ regionunda humanitar vəziyyət və guya Laçın yolunun bağlanması ilə əhalinin ac qalması barədə suala aydınlıq gətirən Azərbaycan rəsmisi bildirib ki, ilk növbədə, Ermənistanın Azərbaycanın 20 faiz ərazisini 30 il ərzində işğalda saxladığını nəzərə almaq lazımdır. Həmçinin Laçın yolunun blokadada olması da doğru fikir deyil, çünki hər iki istiqamətdə Qırmızı Xaç Komitəsinin vasitəsilə insanların hərəkəti, dərman və s. daşınması təmin olunursa, bu zaman blokadadan danışmaq mümkün deyil. Buna baxmayaraq Qarabağda yaşayan insanlar bir qrup separatçının girovuna çevrilib.

Azərbaycan Qarabağdakı əhali ilə ünsiyyət və onların Azərbaycan cəmiyyətinə inteqrasiyasına hazırdır. Laçında məhdud keçid var, Azərbaycan bu vəziyyətə yenidən baxa bilər, eyni zamanda separatçılar əraziyə yüklərin çatdırılması üçün başqa yollardan istifadəyə qarşı çıxmamalıdırlar. Onların Ağdam yolundan imtinasına dair fikri ilə heç də hamı razı deyil.

E.Əmirbəyov qeyd edib ki, Azərbaycan ABŞ, Rusiya və digər ölkələrlə həll yollarının tapılması üzərində işləyir. Əsas iş sülh razılaşmasını əldə etmək, sərhədlərin delimitasiyasına nail olmaqdır. Lakin təəssüf ki, bütün proses Ermənistanın atdığı addımların əsirinə çevrilir. Aydın olmalıdır ki, yeganə sülh yolu Bakı ilə əməkdaşlıq etməkdən keçir.

Guya Qarabağdakı erməni əhalinin genosidə məruz qalmasına dair suala cavab verən E.Əmirbəyov qeyd edib ki, məsələyə beynəlxalq hüquq aspektindən baxılmalıdır və ərazidə baş verənlər bu tip sözlərin əsassız şəkildə istifadə edildiyini göstərir. Sülhün əldə olunması üçün yeganə yol hər iki tərəfin öhdəliklərini yerinə yetirməsindən keçir və Azərbaycan bu prosesi bütün istiqamətlər üzrə aparır. Lakin Ermənistan üçtərəfli Bəyanatın bəzi maddələrini hələ də icra etmir, on min hərbçi və ağır hərbi texnikasını Azərbaycan ərazisindən çıxarmır, eləcə də Azərbaycan ərazilərini minalayır. Müharibə cinayətlərində günahkar olan Ermənistan sözdə deyil, əməldə iş görməli, Qarabağ daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanımalıdır.

Müsahibədə, həmçinin bildirilib ki, nə qədər separatçılar, Ermənistan ordusu Qarabağda qalır, Azərbaycan üçün təhlükə davam edəcəkdir və dünyanı qondarma humanitar böhranla aldatmaq lazım deyil. Aİ öz fəaliyyətini gücləndirməlidir, çünki əslində, bu il sülh müqaviləsi üzərində işi bitirmək lazım idi, lakin indi əsas fəaliyyət erməni yalanlarını neytrallaşdırmaq və həqiqətin nədən ibarət olduğunu göstərməkdən ibarətdir.

E.Əmirbəyov qeyd edib ki, erməni tərəfi, istər Ermənistan ərazisindən, istərsə də Qarabağda tez-tez atəşkəsi pozur, sərhəddə təxribatlar törədilir. Azərbaycan regionda müharibə istəmir və dünyanın diqqəti sülh prosesinə yönəlməlidir. Ermənistanın saxta təbliğatı, manipulyasiyası və beynəlxalq təşkilatlardan alət kimi istifadəsinə son qoyulmalıdır.

***XQ***

# Bakıda TDT ölkələri nazirlərinin ikinci iclası



**Dünən Bakı Konqres Mərkəzində Azərbaycan Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı ilə Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrin Fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci iclası keçirilib.**

İclası nazir general-polkovnik Kəmaləddin Heydərov açaraq TDT çərçivəsində reallaşan tədbirin təşkilata üzv və müşahidəçi ölkələrin fövqəladə halların idarə edilməsi üzrə müvafiq dövlət qurumları arasında faydalı əməkdaşlığa yeni təkan verəcəyinə əminliyini ifadə edib.

Nazir türk dövlətləri liderlərinin müdrik uzaqgörənliyi və siyasi iradəsi sayəsində ölkələrimiz arasında hərtərəfli münasibətlərin ildən-ilə sürətlə genişləndiyini vurğulayıb. Ölkələrimiz arasında sıx inteqrasiya prosesləri qarşılıqlı əlaqələri əhəmiyyətli dərəcədə genişləndirib, Türk dünyasının birliyini, gücünü, qüdrətini artırıb. Bu ilin fevral ayında qardaş Türkiyədə baş vermiş və bütün Türk dünyasını sarsıtmış dağıdıcı zəlzələni xatırladan Kəmaləddin Heydərov dəhşətli təbii fəlakətlə mübarizədə türk dövlətlərinin dəstəyini ölkələrimiz arasında həmrəyliyin bariz nümunəsi adlandırıb.

Qeyd edilib ki, bu çərçivədə fövqəladə hallarla mübarizə üzrə ölkələrimizin aidiyyəti dövlət qurumları arasındakı əlaqələrin daha da inkişaf etdirilməsi üçün yaxşı imkanlar mövcuddur. Təbii və texnogen xarakterli fövqəladə halların getdikcə geniş vüsət aldığı müasir dünyada ölkələrimizin fövqəladə hallarla koordinasiyalı mübarizəsinin əhəmiyyətini qeyd edən nazir K.Heydərov TDT-yə üzv və müşahidəçi ölkələrin Fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci iclası və iclas çərçivəsində yekun müzakirəsi keçiriləcək “Türk Dövlətləri Təşkilatının Mülki Müdafiə Mexanizminin yaradılması haqqında Saziş”in qurumlar arasında əlaqələrin daha da genişlənməsinə mühüm töhfə verəcəyinə əminlik ifadə edib.

Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyünün bərpa olunduğunu qürur hissi ilə qeyd edən nazir FHN-in qüvvələri tərəfindən işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən minatəmizləmə fəaliyyətinə də toxunub.

TDT-nin baş katibi Kubanıçbek Ömüraliyev TDT-yə üzv və müşahidəçi dövlətlərin Fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci iclasına Azərbaycan Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı ilə Bakının ev sahibliyi etməsinə görə təşəkkür edib. K.Ömüraliyev nazirlərin Bakı görüşünün təbii və texnogen xarakterli fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması istiqamətində türk xalqları və dövlətləri arasında həmrəyliyin möhkəmləndirilməsinə növbəti təkan verəcəyinə əmin olduğunu deyib.

Türkiyənin daxili işlər naziri Əli Yerlikaya, Qazaxıstanın fövqəladə hallar naziri general-mayor Sırım Şaripxanov, Özbəkistanın fövqəladə hallar naziri general-mayor Abdulla Kuldaşev, Qırğızıstanın fövqəladə hallar naziri Boobek Ajikeev, Şimali Kipr Türk Respublikasının daxili işlər naziri Dursun Oğuz keçirilən tədbirin əhəmiyyətini vurğulayıb, irimiqyaslı fövqəladə hallarla mübarizə üzrə türk dövlətləri arasında koordinasiyalı fəaliyyətin vacibliyini qeyd ediblər.

İclasda “Türk Dövlətləri Təşkilatı Mülki Müdafiə Mexanizminin yaradılması haqqında Saziş” layihəsinin yekun müzakirəsi aparılıb.

Sonra Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrin Fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci iclasının bəyannaməsi imzalanıb.

# Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əlaqələrin müzakirəsi

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidenti Yurgen Rigterink ilə görüşüb.**



Nazirlikdən XQ-yə bildirilib ki, görüşdə bankla əlaqələrin mövcud vəziyyəti, həyata keçirilən birgə layihələr və əməkdaşlığın genişləndirilməsi imkanları barədə fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycanın AYİB-lə müxtəlif istiqamətlər üzrə uğurlu əlaqələri vurğulanıb, ölkəmizin sosial-iqtisadi prioritetləri barədə məlumat verilib. Qeyd olunub ki, qarşıya qoyulmuş inkişaf hədəflərinin reallaşdırılması istiqamətində əməkdaşlıq imkanları genişdir. Bu kontekstdə bankla “yaşıl” iqtisadiyyat, enerji, xüsusilə bərpa olunan və alternativ enerji, özəl sektorun inkişafı, infrastruktur və digər istiqamətlər üzrə prioritet layihələrin icrası məqsədilə atılacaq addımlar müzakirə edilib.

AYİB-in birinci vitse-prezidenti Yurgen Rigterink bankın ölkəmizlə səmərəli əməkdaşlığını qeyd edib, Azərbaycanın iqtisadi potensialının əlaqələrin genişlənməsinə əlverişli zəmin yaratdığını və qurumun Azərbaycan iqtisadiyyatının inkişafını dəstəkləməyə davam etmək niyyətini ifadə edib.

***XQ***

# TDT-yə üzv ölkələrin “Bakı 2023” təlimi

**Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı ilə Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisində Türk Dövlətləri Təşkilatına üzv ölkələrin fövqəladə halların idarə edilməsi üzrə cavabdeh qurumlarına məxsus xilasetmə qüvvə və vasitələrinin iştirakı ilə “Bakı 2023” beynəlxalq təlimi keçirilib.**



Təlimdə fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov, TDT-nin baş katibi Kubanıçbek Ömüraliyev, Türkiyənin daxili işlər naziri Əli Yerlikaya, Qazaxıstanın fövqəladə hallar naziri general-mayor Sırım Şaripxanov, Özbəkistanın fövqəladə hallar naziri general-mayor Abdulla Kuldaşev, Qırğızıstanın fövqəladə hallar naziri Boobek Ajikeev, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının Baş direktoru Taleh Ziyadov, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin İcraçı direktoru Vüqar Qurbanov, Şimali Kipr Türk Respublikasının daxili işlər naziri Dursun Oğuz, həmçinin Azərbaycanın Daxili İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi, Dövlət Sərhəd Xidməti, “Azərbaycan Dəmir Yolları” QSC-nin rəhbər vəzifəli şəxsləri də iştirak ediblər.

Əvvəlcə, təlimdə iştirak edən xilasetmə qurumlarının texnika və avadanlıqlarına baxış keçirilib. Sonra təlim qərargahında TDT-yə üzv ölkələrin fövqəladə halların idarə edilməsinə məsul qurumlarının böhranların idarə edilməsi üzrə mərkəzləri ilə videorabitə vasitəsilə əlaqə yaradılıb, aidiyyəti qurumlar tərəfindən təlimlə bağlı görülən işlər barədə məruzələr edilib.

Sonra təlimin praktiki hissəsinə başlanılıb. Təlim planına uyğun olaraq episentri Xəzər dənizində olmaqla, Bakı şəhərindən 110 kilometr cənub-şərqdə dağıdıcı zəlzələ baş verib. Şərti zəlzələ nəticəsində bir sıra şəhər və rayonlarda hündürmərtəbəli binalar və sənaye müəssisələrində dağıntılar yaranıb, infrastruktur şəbəkələri sıradan çıxıb. Vətəndaşlar arasında ölənlərin və dağıntılar altında qalanların olduğu bildirilir.

Şərti hadisə ilə əlaqədar Azərbaycan Fövqəladə Hallar Nazirliyinin qüvvələri tərəfindən aidiyyəti dövlət qurumları ilə koordinasiyalı şəkildə dərhal axtarış-xilasetmə, zəlzələ nəticəsində yaranmış yanğınların söndürülməsi və digər zəruri və təxirəsalınmaz tədbirlərin görülməsinə başlanılır.

Dağıntıların miqyası nəzərə alınaraq yardım üçün edilən müraciət əsasında TDT-yə üzv ölkələrin müvafiq qurumlarının qüvvələri hadisə bölgəsinə göndərilir və yerli qurumlarla birgə zəlzələnin nəticələrinin aradan qaldırılması əməliyyatı icra olunur.

Uğurla reallaşdırılan təlimdə qarşıya qoyulan məqsədlərə nail olunub.

Sonda Azərbaycanın Dövlət bayrağı və TDT-nin bayrağı ilə təlim ərazisi üzərindən uçan FHN-in Aviasiya dəstəsinin və Türkiyə Respublikasının təlimdə iştirak edən helikopterlərinin paradı keçirilib.

Qeyd edək ki, təlimdə TDT ölkələrinin aidiyyəti qurumlarının ümumilikdə 8 helikopteri və 1 amfibiya təyyarəsi, 245 xüsusi təyinatlı texnikası, 6 xüsusi təlim görmüş iti və 1180 nəfərdən ibarət canlı qüvvəsi iştirak edib. Həmçinin təlimdə Azərbaycanın FHN ilə yanaşı, Daxili İşlər Nazirliyi, Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsi, “Azərbaycan Dəmir Yolları” və Bakı Beynəlxalq Dəniz Ticarət Limanının qüvvələri də iştirak ediblər.

# Ceyhun Bayramovun İqor Xovayevlə görüşü



**Dünən xarici işlər naziri Ceyhun Bayramov Rusiya Federasiyasının xarici işlər nazirinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul edib.**

Görüşdə Azərbaycan və Ermənistan arasında sülh prosesi, habelə regionda mövcud vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov Ermənistan tərəfinin sülh gündəliyinə xələl gətirən, ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı yönəlmiş bəyanat, ritorika və təxribatlarının regionda davamlı sülhün bərqərar edilməsinə yönələn səy və təşəbbüslərə xələl gətirdiyini diqqətə çatdırıb.

Ermənistanın regionda “gərgin humanitar vəziyyət” və “blokada” olması ilə bağlı əsassız iddialar irəli sürməsi fonunda “Ağdam-Xankəndi” yolunun açılması ilə paralel olaraq Laçın yolundan istifadənin intensivləşməsi təklifinin rədd olunmasının vəziyyətin heç də humanitar deyil, əksinə siyasi xarakterli olduğunu göstərdiyi bildirilib.

Xüsusilə, Ermənistan tərəfindən ölkəmizə qarşı siyasi və hərbi təxribatların artdığı bir şəraitdə bu kimi addımların beynəlxalq ictimaiyyət tərəfindən qınanılmasının vacibliyi vurğulanıb.

***XQ***

# XİN rəhbərinin ABŞ dövlət katibinin köməkçisi ilə telefon danışığı

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifəsini icra edən Yuri Kim arasında telefon danışığı baş tutub.**





C.Bayramov bölgədə cari vəziyyət barədə qarşı tərəfi ətraflı məlumatlandıraraq, Ermənistanın Azərbaycana qarşı hərbi-siyasi təxribatlarının, vəziyyəti təhrif edən manipulyasiyalarının artması fonunda bu ölkənin beynəlxalq ictimaiyyəti yanlış yönləndirməyə istiqamətlənən propaqandasının reallıqları əks etdirmədiyini diqqətə çatdırıb.

Bölgədə guya “çətin humanitar vəziyyət” və “blokada”nın mövcudluğu ilə bağlı əsassız iddialar bəhanəsi ilə ölkəmizin daxili işlərinə, o cümlədən Qarabağ bölgəsində yaşayan erməni sakinlərin cəmiyyətimizə reinteqrasiyası səylərinə müdaxilələrin qəbuledilməz olduğu diqqətə çatdırılıb.

Azərbaycan tərəfindən Beynəlxalq Qızıl Xaç Komitəsi vasitəsilə Ağdam-Xankəndi yolundan istifadə etməklə erməni sakinlərə yüklərin daşınması, buna paralel olaraq Laçın yolundan istifadənin intensivləşməsi barədə əldə edilmiş razılıqların Ermənistan və onun yaratdığı qondarma rejim tərəfindən son anda pozulmasının yaranmış vəziyyətin humanitar deyil, siyasi manipulyasiya olduğunu göstərdiyi bildirilib.

Ermənistan tərəfinin sülh prosesini təhdid altında qoyan bəyanat və addımlarına baxmayaraq, normallaşma gündəliyinin irəli aparılmasında qərarlı olduğumuz, lakin bu mövqeyimizə sadiqliyimizin, ərazi bütövlüyümüz və suverenliyimizə qarşı yönələn hər hansı təhdidin qarşısını almaq hüququmuza xələl gətirmədiyi diqqətə çatdırılıb.

***XQ***

Məişət zorakılığına son!

# “Adın şərəflidir sənin, ey qadın!”

## Lakin onun mənlik və ləyaqətini alçaldanlar da az deyil

**Azərbaycanda qadınların hüquqlarını əksər hallarda ailə üzvlərinin özləri pozurlar. Araşdırmalar göstərir ki, onlara ərləri və ya digər ailə üzvləri hədə-qorxu gəlir, yaxud incidir, zorlayır, hətta yaralayır və öldürürlər. Bu zərif məxluqları qorumalı, himayə etməli olduqları halda, özləri təqib və təhqir edirlər.**



Belə halların əksəriyyəti ölümlə nəticələnir. Daxili İşlər Nazirliyinin məlumatında bildirilir ki, məişət zorakılığı ilə bağlı 2022-ci ildə qeydə alınmış cinayətlərdə zərər çəkən qadınların sayı 1196 nəfər olub, onlardan 51 nəfəri həyatlarını itiriblər. Bunların da kökündə iqtisadi, siyasi, sosial məsələlər durur. Burada bir maraqlı məqam da var. Baş verən qətllər və cinayətlər zamanı həbs olunanların məhkəmə proseslərində müttəhimlər qətlə yetirdikləri qadınları ittiham etməkdən çəkinmirlər. Məhkəmələrdə bacısını və ya arvadını öldürmüş məhkumların böyük əksəriyyəti bunun səbəbini qızların və qadınların davranışının qeyri-əxlaqi olması, namus məsələsi ilə əsaslandırırlar.

Təəssüflə qeyd etməliyik ki, ailə-məişət və digər zəmində baş verən münaqişələrin, cinayətlərin 60–70 faizi isə azyaşlı və yeniyetmə uşaqların gözü qarşısında baş verir. Belə qətlləri törətmiş cinayətkarlara heç bir haqq qazandırmaq mümkün deyil. Çünki bu zaman uşaqların ümid yeri olan hansısa ana dünyasını dəyişir, uşaqların keçirdiyi psixoloji sarsıntını və onun yaddaşında buraxılan bu qanlı izi isə heç nə ilə silmək mümkün olmur. Əslində, həmin hadisələrin əksəriyyətində əxlaqsızlıq motivi sonradan heç də öz təsdiqini tapmır. Görünür, müxtəlif səbəblərdən cinayət etmiş cani bu yolla özünə haqq qazandırmaq istəyir.

### Zərif məxluq güclü himayəyə möhtacdır

Azərbaycanda fiziki və psixoloji zorakılıq faktlarından və erkən nikahdan əziyyət çəkənlər, cinsi zorakılığın və insan alverinin qurbanları kifayət qədərdir. Zorakılıq qurbanlarının əksəriyyəti cəmiyyətdə etibarlı rəsmi, yaxud ictimai dəstək tapmadığından susmağa üstünlük verir, polisə müraciət etməkdən qorxur, buna görə də konkret faktla bağlı cinayət işləri açılmır. Bəzən də polis və digər orqanlara baş verən zorakılıq haqqında son anda məlumat verilir. Belə olan halda mənəvi-psixoloji yardıma ehtiyacı olan bu qadınları yaxınları belə qəbul etməkdən imtina edir. Gender bərabərsizliyi isə, bütövlükdə cəmiyyətə zərbə vurur. Bu, qadınların məhsuldar məşğulluğa cəlb edilməsinə və qızların məktəbə getməsinə mane olur.

Zorakılıq, müdafiəsiz qadınları cinsi əlaqələr qarşısında daha çətin vəziyyətə salır, zəif edir və müxtəlif xəstəliklərin daha geniş yayılmasına da səbəb olur. Bütün bunlar ailə, xüsusilə də gələcək nəsillər üçün dərin və sağalmaz sarsıntıya gətirib çıxarır. Mütəxəssislər bildirirlər ki, gender əsaslı zorakılığa məruz qalmış və ya bu risklə üzləşən qadın və qızların hüquqlarının dayanıqlı şəkildə müdafiəsinin təmin edilməsi günün vacib məsələlərindən biridir.

Vəkil Xəyal Bəşirov bildirir ki, qadınlara qarşı həm ailədə, həm də cəmiyyətin digər müstəvilərində baş verən zorakılıq hallarının müəyyənləşdirilməsi və bunlarla bağlı mübarizənin qanuniləşdirilməsi istiqamətində atılmış mühüm addımlardan biri 2010-cu ildə “Məişət zorakılığının qarşısının alınması haqqında” qanunun qəbul olunmasıdır. Bu qanun yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşayışdan sui-istifadə etməklə törədilən zorakılığın, onun doğurduğu mənfi hüquqi, tibbi və sosial nəticələrin qarşısının alınması, məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial müdafiəsi, hüquqi yardımla təmin edilməsi, habelə məişət zorakılığına səbəb olan halların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirləri müəyyən edir və tənzimləyir. Qanunun 10-cu maddəsi zərərçəkmiş şəxslərə mühafizə orderinin verilməsini nəzərdə tutur. Belə qadına və kişiyə qısamüddətli və ya uzunmüddətli mühafizə orderi verilə bilər.

Qeyd edək ki, “Məişət zorakılığının qarşısının alınması haqqında” qanun 2010-cu ildə qüvvəyə minsə də, zərərçəkmiş şəxsə mühafizə orderinin verilməsi ilə bağlı müddəa 2 il işləməyib. Çünki “Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, şikayətlərə baxılma Qaydası"nı Nazirlər Kabineti yalnız 2012-ci ilin fevralında qəbul edilib və mühafizə orderlərinin verilməsinə 2013-cü ildən başlanılıb. Əgər 2014-cü ildə Azərbaycanda zorakılığa məruz qalan 3 nəfərə mühafizə orderi verilmişdirsə, artıq 2022-ci ildə bu rəqəm 58 olub. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova deyib: “Bu il Komitəyə məişət zorakılığı ilə bağlı müraciətlər ötən ilin birinci yarısı ilə müqayisədə 10 faiz artıb. Müraciətlərin 225-si məişət zorakılığı ilə bağlıdır. 2023-cü ilin 6 ayında müraciətlərə əsasən yerli icra hakimiyyəti orqanları tərəfindən zərərçəkmiş şəxslərə 40 mühafizə orderi verilib”.

### Sığınacaqlar qurbanları qəsdlərdən qoruyur

Mühafizə orderi verilsə belə, əsas məsələ bunun nə qədər təsirli olması ilə bağlıdır. Təcrübə göstərir ki, qanunun olması, mühafizə orderinin verilməsi hələ zorakılığın qarşısının alınması demək deyil. İndi icra hakimiyyəti 1 ay və ya 3 aylıq mühafizə orderi verir, bu müddətdə zorakılıq törədən şəxs sakit dayanır, elə ki, vaxt bitdi, yenidən öz əməlinə başlayır. Ona görə də, bu istiqamətdə ciddi sürətdə dəyişiklik lazımdır. Yəni yalnız mühafizə olunanın öz müraciəti ilə orderin müddətinə xitam verilməlidir.

Xatırladaq ki, mühafizə orderi Avropadan gəlmə bir tendensiyadır və bu, kiçik ailələr üçündür. Bizdə isə böyük ailələrdir - qayınata, qayınana, baba, nənə, qayın, baldız, əmi, dayı... Təsəvvür edin mühafizə orderini tətbiq edəndən sonra zərərçəkən qadın o böyük ailə içərisində nə qədər təhlükəsiz yaşayacaq? Bəs çıxış yolu nədir? Hüquq müdafiəçiləri qeyd edirlər ki, Türkiyə təcrübəsindən də faydalanmaq olar. Türkiyədə “Bələdiyyə haqqında” qanunun 14-cü maddəsinə görə, iri şəhər bələdiyyələri (əhalisinin sayı 100 mindən artıq) qadın və uşaqlar üçün sığınma evləri açmaq məcburiyyətindədir. Ailə, Çalışma və Sosiyal Xidmətlər Nazirliyinin məlumatına görə, ümumilikdə, 3 min 454 nəfərlik 144 qadın sığınmaevi fəaliyyət göstərir. Bura sığınan qadınların yerləri hər kəsdən gizlin saxlanılır ki, həyat yoldaşları onlara zərər yetirməsin. Azərbaycanda isə sığıncaqlar çox azdır, əsasən də QHT sığıncaqlarıdır.

Bu barədə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib: “Ölkədə yeni sığınacaqların yaradılmasına, mövcud sığınacaqların zəruri standartlara çatdırılmasına çalışırıq”. O bildirib ki, hazırda ölkədə 4 QHT tərəfindən yaradılan 5 fəal sığınacaq var: “Lakin bu sığınacaqların imkanları yüksək deyil. Qəbul edilən şəxslərin sayı məhduddur. Biz bu istiqamətdə dəstəyimizi əsirgəmirik. Sığınacağa ehtiyacı olan şəxslərin müvafiq qaydada yerləşdirilməsi üçün yönləndirməyə çalışırıq. Əlbəttə, regional sığınacaqların olması vacibdir. Yaxın zamanda yeni sığınacaqların fəaliyyət göstərməsi gözlənilir”.

### Qadın Resurs Mərkəzilərinə də ehtiyac var

Araşdırmalar göstərir ki, məişət zorakılığının qarşısının alınmasının bir yolu da qadınların iqtisadi fəallığının artırılmasıdır. Hazırda 17 regionda Qadın Resurs Mərkəzi fəaliyyət göstərir. Məqsəd kənd və rayon yerlərində yaşayan qadınların və gənclərin iqtisadi həyatda fəal iştirakı, sahibkarlıq fəaliyyəti və məşğulluğu üçün iqtisadi imkan və bacarıqlarının artırılmasıdır. Bu günədək 8 min 200 nəfərdən çox qadın üçün gender bərabərliyi və iqtisadi hüquqlar, həmçinin biznesin inkişafı, peşə kursları, mühasibat uçotu, maliyyə savadlılığı və kompüter elmləri üzrə ödənişsiz təlimlər keçirilib və 600-ə yaxın qadın isə sahibkarlıq fəaliyyətinə başlayıb. Bu imkan verir ki, onlar iqtisadi baxımdan daha çox inkişaf etsinlər və daha da sərbəst olsunlar. Bu inkişaf da məişət zorakılığı, qızların təhsildən yayınması, erkən nikahların olması kimi halların azalmasına təsir göstərir.

Mərkəzlərdə gender əsaslı və ya məişət zorakılığından əziyyət çəkmiş qadınlara hüquqi və psixoloji yardım təklif edir.

Bəli, bu gün elə sosial müdafiə sistemi yaradılmalıdır ki, bu məsələlərlə təkcə polis məşğul olmasın. Sosial işçilər həm zorakılıq törədən, həm də zorakılığa məruz qalan şəxslə iş aparmalıdır. Hər bir halda isə qanunlar cəmiyyətin tələblərinə uyğunlaşdırılıb qəbul edilməlidir.

***P.ƏFƏNDİYEV***
***XQ***

SOSİAL SFERA




### “Yeni doğulmuş qızlara”

**Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasının stimullaşdırılması, qız uşaqları doğulan ailələrə dəstək məqsədi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial Dəstək Mərkəzinin həyata keçiridiyi “Yeni doğulmuş qız övladları üçün qutu” layihəsi davam edir.**

Bugünlərdə mərkəzin əməkdaşları həmin layihəni həyata keçirmək məqsədilə qusarlıların qonağı olub. Layihə çərçivəsində Qusarda cari ilin iyul ayında qız uşaqları doğulan 30 ailəyə içərisində körpə uşaqlar üçün ləvazimatlar, geyim dəsti və uşağa qulluq və onun ilkin tərbiyəsi ilə bağlı maarifləndirici təlimat olan qutu təqdim olunub.

Qeyd edək ki, layihə daha əvvəl Şamaxı, Tovuz, Masallı, Tərtər rayonlarında uğurla həyata keçirilib. Nazirlikdən bildiriblər ki, layihənin mərhələli olaraq digər rayonlarda da keçirilməsi planlaşdırılır.

### Məşğulluq Agentliyi beynəlxalq qalibdir

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və Kommunikasiya şöbəsinin verdiyi məlumata görə, Dövlət Məşğulluq Agentliyi beynəlxalq “Business Awards UK” müsabiqəsində qalib olub. Qeyd edilir ki, müsabiqəni İngiltərənin nüfuzlu marketinq və konsaltinq şirkəti keçirib.**

Agentlik 13 istiqamətdə qiymətləndirmənin aparıldığı müsabiqəyə ölkəmizin son illərin mühüm rəqəmsal sosial layihələrindən olan “Əmək və Məşğulluq“ altsistemini (ƏMAS) təqdim edib. Dövlət və özəl sektorda çalışan peşəkar münsiflərdən ibarət komissiya tərəfindən ƏMAS yüksək dəyərləndirilib və Dövlət Məşğulluq Agentliyi müsabiqənin “Rəqəmsal Transformasiya–2023” (2023–Digital Transformation Awards) kateqoriyasında “Ən Yaxşı Çevik Transformasiya” nominasiyası üzrə qalib seçilib.

Xatırladaq ki, 2022-ci ilin may ayında istifadəyə verilən ƏMAS bundan əvvəl “IDDA Awards” müsabiqəsində “İlin Rəqəmsal Layihəsi” nominasiyasında qalib olub, habelə Beynəlxalq Telekommunikasiya İttifaqının “Çempion layihə” mükafatına layiq görülüb. Bugünlərdə ƏMAS, həmçinin BMT-nin Cənub–Cə-




nub əməkdaşlığı platformasında uğurlu innovativ həll nümunəsi kimi də təqdim edilib.

ƏMAS əmək və məşğulluq sahəsi üzrə xidmətlərin e-qaydada təqdim edildiyi, rəqəmsal kadr uçotunun qurulduğu, insan resurslarının effektiv idarə edilməsinə və əmək bazarına e-sistem üzərindən çevik və effektiv nəzarətə imkan yaradan vahid elektron platformadır.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

Etnoqrafik ünvan

**Xocavənd rayonunun turizm potensialı çox genişdir. Rayonun ərazisində tarixi və təbiət abidələri, körpülər, eyni zamanda məşhur Azıx mağarası, Tağlar mağarası yerləşir. Burada həm də tarixi keçmişi olan qədim Tuğ kəndi var. Tuğda və ətraf ərazilərdə ölkə və dünya əhəmiyyətli arxeoloji abidələrin olması arxeoloji turizmin inkişaf etdirilməsinə böyük imkanlar yaradır. Eləcə də rekreasiya turizmi – istirahət və müalicə məqsədilə həyata keçirilən səyahətdir ki, turizmin bu növünün inkişaf etdirilməsi üçün xeyli imkanlar var. Tuğ kəndi həm də qədim şərabçılıq mərkəzidir və şərabçılıq turizminin inkişafı üçün geniş imkanları var.**

# Tuğ şərabçılıq turizminin mərkəzinə çevrilir

**Bu barədə Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov deyir:**

– Ağdam və Füzuli ilə müqayisədə Xocavənd rayonu ciddi şəkildə dağılmayıb. Onun turizm potensialı geniş və çoxşaxəlidir. Xüsusilə Tuğ kəndi daha çox turist cəlb edə bilər. Tuğun tarixi memarlıq üslubunu saxlamaqla burada mədəni turizmi, zəngin təbiətindən istifadə etməklə ekoturizmi inkişaf etdirmək mümkündür. Onun aqroturizm potensialı da böyükdür.

Tarixən, şərabçılıq destinasiyası kimi tanınan Tuğ kəndi Xocavənd və Füzuli rayonlarının üzüm sahələrindən toplanan məhsuldan alınan şərabları ilə də məşlarla ton istehsal edən ölkələrlə rəqabət etmək üçün bizə vaxt lazımdır. 4 illik nəticə isə göz qabağındadır: bizim şərablar bəyənilir və Azərbaycan brendi tanınır. Xatırladım ki,Tuğ kəndində 58,2 ha, üzüm bağları mövcuddur.

**– Tuğa turistləri cəlb etmək üçün ciddi təbliğat işi aparılmalıdır. Bu sahədə vəziyyət nə yerdədir?**

– Tuğda şərabçılığın qədim tarixi, ənənələri var. Bu səbəbdən düzgün təbliğat və təqdimat bacarığı çox vacibdir. Reklam işi də düzgün təşkil edilməlidir. Bu istiqamətdə ciddi işlər görülür. Gələcəkdə şərab yarmarkaları çərçivəsində Tuğ şərabları xarici istehlakçılara tanıdılacaq. Bununla yanaşı, Tuğ kəndi Qafqaz şərab marşrutuna (“İter Vitis Qafqaz” şərab marşrutu) daxil ediləcək.



hur olub. İndi burada şərabçılıq ənənələri inkişaf perspektivləri ilə birləşərək Qarabağ şərablarına yeni nəfəs verəcək, yerli və xarici turistlərin bölgəyə marağını artıracaq. Tuğ şərabçılıq turizminin mərkəzi olacaq ki, bu da ölkəmizə yetərincə dividentlər gətirməklə iqtisadiyyatına müsbət təsir edəcək.

**– Deməli, turistləri cəlb etmək üçün əsas istiqamətlərdən biri də Tuğ kəndində şərab turizminin inkişaf etdirilməsidir.**

– Artıq bu istiqamətdə addımlar atılır. Tuğ kəndinin ərazisindəki şərab zavodunun bərpası nəzərdə tutulur. Bu zavodda işğal dövründə, hər il 60 min şüşə "Kataro" şərab istehsal edilib, erməni məhsulu kimi satışa çıxarılıb. Ermənilər bu markanı, əsasən, Rusiya bazarı üçün istehsal ediblər. Bir sözlə işğal dövründə sərvətimizi talan ediblər, hətta hər il “Şərab turu” adlı turist səfərləri də təşkil olunub. Artıq o günlər geridə qalıb. İkinci Qarabağ müharibəsi zamanı Tuğ kəndinin yerləşdiyi ərazi işğaldan azad edilib, öz sahibinə qayıdıb.



Zavod isə yenidən pərpa edilir. Bu məqsədlə müasir turizm konsepti tətbiq ediləcək. Belə ki, bura yalnız şərab istehsal edilən yer deyil, həmçinin Tuğ bölgəsində tarixən mövcud olmuş şərabçılıq ənənəsinin təbliğ olunduğu məkana çevriləcək. Kompleksin tərkibində müxtəlif tədbir və festivalların keçirilməsi üçün çoxtəyinatlı məkanlar olacaq. Şərabçılar öz məhsullarını satmaq, təcrübə mübadiləsi aparmaq, şərablarını tanıtmaq üçün imkanlar qazanacaq.

**– Yəqin ki, şərab istehsalı üçün əsas üzüm sortu kumi məşhur “Xindoqnı”dən istifadə ediləcək?**

– Turistlərə təqdim olunan şərab əsasən Qarabağın məşhur “Xindoqnı” üzüm sortundan hazırlanacaq. Artıq bu üzüm sortu bərpa olunub və müasir üsullarla öyrənilir. Bununla əlaqədar olaraq Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun (ÜŞETİ) əməkdaşları respublikanın müxtəlif regionlarındakı köhnə üzüm bağlarına, fermer və ev təsərrüfatlarına baş çəkərək “Xindoqnı” üzüm sortunu müəyyən ediblər. Əkin materialı tədarük etmək üçün davamlı tədqiqatlar həyata keçirilib. Müəyyən edilib ki, bu sort respublikamızda 9,2 ha sahədə əkilib-becərilir ki, onun da 7 ha Tuğ kəndindədir. Vaxtilə bu sortdan yüksək keyfiyyətli müxtəlif növ şərablar istehsal edilib. Bu şərablar nəinki respublikada, hətta xarici ölkələrdə də məşhur olub. Yenidən ondan istifadə etməklə respublikada şərabçılıq üzrə milli brendlərin istehsalı məqsədilə xammal bazası yaradılacaq, muxtəlif növ şərablar istehsal olunacaq. Onlar özünəməxsus dadı və ətri ilə seçiləcəklər.

Zavod işə düşdükdən sonra Tuğa gələn turistlərə tam orqanik şərab təqdim olunacaq. Onlar şərabı birbaşa zavodda dada, istehsal prosesini izləyə, üzüm bağlarını gəzə, şərab festivallarında iştirak edə və yerindəcə bəyəndikləri şərabı ala biləcəklər.

Bundan başqa, onlara üzümün hansı şəraitdə yetişdiyini, necə qulluq edildiyini isləmək, üzüm yığımında iştirak etmək üçün şərait yaradılacaq.

Yəni Tuğ şərabçılıq turizminin mərkəzinə çevriləcək. Bu turizm növü bizim üçün yeni olsa da, Avropada artıq populyarlaşıb. Milyonlarla turist İtaliya, Fransa, İspaniya, Gürcüstandakı şərab festivallarına gedir, üzüm yığır, şirəsini çıxarmaq üçün onu həvəslə tapdalayır, həmin yerə məxsus şərabı dadır və alır. Ölkələr bundan yaxşı gəlir əldə edirlər.

Zəngin şərabçılıq tarixi olan, milyonBu marşrutda Azərbaycanla yanaşı Gürcüstan, Rusiya Federasiyasının Krasnodar vilayəti də var. Marşrut çərçivəsində Tuğa səfərlər təşkil ediləcək. Turistlərə üzümün emalı və bütün texnoloji proseslər nümayiş olunacaq, onlara yerli növlərin və şərab istehsalının tarixi haqda informasiyalar veriləcək, sonra şərabları dadacaqdır. Bundan başqa, Tuğa şərab turları da təşkil olunacaq. Bu turlara qoşulanlar məhsulu bağdan yığmaqdan tutmuş şərabın dadına baxmağadək bir çox şans əldə edəcəklər. Üzüm və Şərab Festivalları da gələcəkdə Tuğun şərabçılıq turizminin inkişafında rolu olacaq.

Həmçinin burada qonaqlar şərabçılıqla əlaqəli qədim eksponatlarla tanış ola biləcəklər. Dequstasiya zalları təşkil etmək, şərablarımızı təbliğ etməklə turistləri mütəmadi ora aparmaq olar. Həmin dequstasiya zallarına gələn turistlər yaxşı gəlir gətirəcək.

Müxtəlif turlarda iştirak edən turistlə bu yolla ziyarət etdikləri məkanlardan aldıqları təəssüratlarıla öz rekreasiya tələbatlarını təmin etmiş olacaqlar. Vətənlərinə qayıtdıqdan sonra isə tanışları, qohumlarına səfərləri barədə məlumat verəcəklər. Bunun özü bir təbliğatdfır.

İnanıram ki, Tuğda turistlər yüksək peşəkarlıqla qarşılanıb yola salınacaq. Onlara asudə vaxtlarından səmərəli istifadə etmək üçün hər cür şərait yaradılacaq.

**– Ziyarətçilər gəzinti zamanı təbiətin şərabla mükəmməl uyğunlaşdığı məkanda şərabın dadına baxa bilərlər. Amma onlar bununla yanaşı bir rahatlıq da istərlər. Hasırda Tuğda bərpa işləri nə vəziyyətdədir?**

– Tuğun tarixi hissəsində ilkin turizm infrastukturunun yaradılması istiqamətində işlər aparılır. Müxtəlif obyeklərin layihələndirilməsi işləri həyata keçiririlir. Kəndin girişində avtodayanacaq, digər zəruri turizm infrasturukturlarının yaradılması, turizm informasiya mərkəznin, kulnariya mərkəzinin, eyni zamanda iaşə obyektlərinin qurulması nəzərdə tutulur.

Artıq mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocavənd rayonunun Tuğ kəndində İnzibati Mərkəzin təməlinin qoyulması mərasimində iştirak ediblər. Kənddə 1,63 hektar sahəni əhatə edəcək inzibati zonada ikimərtəbəli inzibati bina, klub icma və mədəniyyət mərkəzləri, restoran tikiləcək. Burada tikiləcək və bərpa ediləcək binaların ümumi sahəsi 3200 kvadratmetr olacaq.

Yerüstü parkinq sahəsinin də yaradılması nəzərdə tutulub. Bu ərazilərə bütün yol infrastrukturunun, kommunikasiya xətlərinin, o cümlədən işıq, rabitə və yüksəksürətli internetin çəkilməsi planlaşdırılır. İnzibati mərkəzdə tikinti-bərpa işlərinin gələn ilin martında başa çatdırılması nəzərdə tutulur.

Beləliklə, Tuğ cənnət kimi bir yer olacaq. Görəcəklər ki, torpaq sahibinin əlində olanda cənnətə dönür.

***Ə.PÜNHAN***
***XQ***

**Hadrut**

Ötən illərin filmləri

# "Qala" milli yaddaş yuvasıdır

(əvvəli 1-ci səhifədə)

Əfqanıstan savaşının bitib, Qarabağ müharibəsinin başlanması ərəfəsində Qarğalar kəndinə çəkiliş qrupu gəlir . Şərti adı "Qeyrət dastanı" olan filmin rejissoru Rafiq müəllim kənddəki qalaya həqarətli münasibət göstərir. Tarixi yaddaşı təmsil edən qarğaya daş atır. Kənddəki tarixi şüurun daşıyıcısı isə Əbil müəllimdir. (Vidadi Həsənov) Düşmən təcavüzü ərəfəsində Əbil müəllimin qalanın daşlarının aparılmasından danışması düşündürücüdür. Çünki qala bu anlamda, bütövlükdə, vətəni təmsil edir.

Övladı Qərbi Azərbaycanda incidilən Soltan kişi (Rasim Balayev) onun yolunu gözləyir. Onunla bənzər taleyi olan Əsli arvaddır (Sona Mikayılova). Onun övladı Əfqanıstan savaşında həlak olsa da, buna inana bilmir. Soltan kişinin "Allah Əfqanıstanda dava salanın evini yıxsın" deməsi sovet siyasətininin bəlalalarını ifadə edir. İndi onun özü də bu bəlanın içərisindədir. Lakin onların ikisinin də övladlarının qayıdcağına ümidi var.






Əbil müəllim dərsdə Qarğalar kəndinin tarixindən danışır. O qədim yəhudi torpağının Adameya olduğunu deyib, bu sözün insan toplusu mənasında olduğunu bildirir. Kəndə gəldikdə bir şagird bunun qarğalar yığnağı olduğunu soruşmasına bütün sinif gülür. Lakin Əbil müəllim ustalıqla bu suala da cavab verir. Kəndin adının Qarğalar olmasının səbəbini tarix boyu onun üzərinə düşmən hücumlarının olması ilə əlaqələndirir.

Bu versiyanı Soltan kişi daha dəqiq izah edir. Bakıdan kino çəkmək üçün gələn Seyiddən (Elman Rəfiyev) adının mənasını soruşur. Deyir ki, heç kəs övladına boş yerə belə ad qoymaz. Soltan kişi bir seyidin 300 il bundan qabaq qalada düşmənlərlə vuruşub şəhid olduğunu xatırladır. Bununla da kəndin adı mötəbər məqam qazanır.

Yaddaşa mənfi münasibət bəsləyən Rafiq müəllimin filmi yarımçıq qalır. Buna səbəb baş rol ifaçısının atdan yıxılması olur. Əslində, bunu təsadüf hesab etmək olmaz. Dolayısı ilə bildirilir ki, milli ruhdan məhrum Rafiq müəllim kimi adamlar tarixi film çəkə bilməzlər. Bununla da Bakıdan gətirilən ağ at qalada qalmalı olur. Onu bu məkanda qoruyan isə Xanbaladır. O Qala adlı rus qızına uşaq məhəbbəti bəsləyir. Onu Kepkalı oğlan kimi bir avaradan qorumağa çalışır. Bununla Əbil müəllimin atalıq etdiyi Xanbalanın kişi xarakteri ortaya çıxır. Filmin sonunda biz bunu aydın görürük. Yıxılan aktyora yardım üçün gələn həkimin mesajı da diqqətçəkicidir. Onun "İndi at vaxtı deyil, tank vaxtıdır, tank!" deməsi düşmən qarşısında aciz olmamağın mesajını verir.

Ötən əsrin 20–30-cu illərində kino kütlələri dindən uzaqlaşdırmaq məqsədi daşıyırdı. "Qala" filmində buna qarşı çıxılır. Soltan kişi Osmanın (Pərviz Məmmədrzayev) qayıtması ilə bağlı duaları müstəcəb olsun deyə kəndin köhnə məscidini bərpa etmək istəyir. İnanır ki, övladı bununla sağ-salamat qalacaq. Lakin bu zaman köhnə daş-divar yox, film üçün düzəldilmiş dekorasiya dada çatır. Onlar bu məkanda ibadətlərini bərpa edirlər. Soltan kişinin dekorativ gümbəzə çıxıb azan verməsi mənəvi dəyərlərə qayıdışı simvolizə edir.

Soltan kişinin arzusu gerçəkləşsə də, faciə baş verir. Düşmənlərin törətdiyi fəlakətlər Osmanın ürəyini ağrıdır. Ona görə də atası ilə ayaqüstü görüşdən sonra anasını görmədən həlak olur. Osmanın dəfnində Soltan kişi bir əhdini də yerinə yetirir. Onun məzarı üstündə toyundaymış kimi rəqs edir. Soltan kişinin faciəsi təkcə şəxsi deyil, həm də millidir. Çünki övladı kəndin ilk şəhidi hesab edilir.

Azərbaycanın adət-ənənəsi "Dədə Qorqud" dastanlarından başlayır. Filmdə adların xüsusi mənası var. Kəndə düşmən hücumu zamanı Xanbalanın balaca olsa da, qaçmaması Kepkalı oğlanın isə tez özünü qadınlar olan maşına dürtməsi bunu təsdiq edir. Həmçinin Seyidin 300 il öncəki şəhiddən nümunə götürərək, şəhərli ola-ola kənddə qalıb düşmənə müqavimət göstərməsi bu ənənənin təzahürü kimi görünür. Deməli, "Qala" filmində Dədə Qorqud yaddaşı da iştirak edir.

Əbil müəllimin fikri bu olur: "Nə qədər qaçacağıqsa, o qədər qovacaqlar". Geri durmamaqla bağlı bu deviz düşmənin növbəti hücumu zamanı özünü doğruldur. Soltan kişi, Əsli arvad, Seyid və digərləri birləşib düşmənə müqavimət göstərməyə hazırlaşırlar. Kino çəkilişindən qalan top da köməklərinə çatır. Onlar düşmənə görk olsun deyə onu qalanın başına qaldırırlar. Tarixi yaddaş bu dəfə praktiki əhəmiyyət daşıyır...

"Qala" filmi müstəqil Azərbaycan kinosunun ciddi əsərlərindən biri hesab olunur. Çünki kinomuzda milli yaddaşın əksi elə də çox deyil. 2020-ci ilin "Zəfər Yürüşü" ilə əzəli torpaqlarımızın düşməndən azad olunmasından sonra bu ekran işi daha da ciddi önəm qazanıb.

***Ceyhun MİRZƏLİ***
***sənətşünas***

# Əfsanəvi telejurnalist Ənvər Məmmədov vəfat edib

## O, 23 il SSRİ Dövlət Televiziya və Radio Komitəsi sədrinin birinci müavini vəzifəsində çalışıb

**Sovet Məlumat Bürosunun keçmiş baş redaktoru, Nürnberq prosesinin tərcüməçisi Ənvər Məmmədov 100 yaşında vəfat edib. TASS xəbər verir ki, bu barədə sovet və Rusiya televiziyası və radiosu xadimi, jurnalist, Rusiya Jurnalistlər İttifaqının üzvü Yevgeni Şirokov bildirib.**



O deyib: "Bəli, həqiqətən belədir, Ənvər artıq yoxdur". Y.Şirokov Ə.Məmmədovla 15 il birgə işləyib, onun 8 ilini isə bilavasitə onun rəhbərliyi altında çalışıb. O qeyd edib: "Mən Mərkəzi televiziyada gənclər üçün proqramlar şöbəsinin baş redaktoru idim. Biz hər gün ünsiyyətdə idik, gündə bir neçə dəfə danışırdıq. Onun kimi ağlasığmaz dərəcədə iş bacarığına malik ikinci bir insana rast gəlməmişəm. Ənvərin heyrətamiz qavrama qabiliyyəti var idi, bu isə televiziya üçün son dərəcə vacibdir. Demək olar ki, bir neçə saniyədə əsas mənanı tuta və qeyri-dəqiq məqamları görə bilirdi. Çiynində hiss etdiyi ağır məsuliyyət yükünə baxmayaraq, inanılmaz dərəcədə yumor hissini hər zaman qoruyub saxlaya bilirdi, hər bir həmkarı ilə dil tapmağı bacarırdı. Ciddi idi, lakin heç vaxt peşəkar etikadan kənara çıxmırdı. Ondan nümunə götürməyə dəyərdi, indiki zəmanədə belə insanlara rast gəlmək mümkün deyil".




Rusiya Jurnalistlər İttifaqının rəhbəri Vladimir Solovyov əfsanəvi həmkarının ailəsinə və silahdaşlarına dərin hüznlə başsağlığı verib. "Ənvər Məmmədov həqiqətən sovet jurnalistikasının və diplomatiyasının əsl əfsanəsi idi. O, tərcüməçi kimi Nürnberq prosesində iştirak edib, müharibədə olub, informasiya agentliklərinə və televiziyaya rəhbərlik edib", – deyə o qeyd edib.

Qeyd edək ki, Ənvər Məmmədov sözügedən prosesdə iştirak edən iki azərbaycanlıdan biri olub. SSRİ Xarici İşlər Nazirliyinin xətti ilə 1945-ci ilin dekabrından 1946-cı ilin fevralına qədər Nürnberq beynəlxalq hərbi tribunalında alman dili tərcüməçisi qismində digər bir azərbaycanlı – o vaxt 26 yaşı olan Ələsgər Məmmədov da iştirak edirdi. Ə.Məmmədov İkinci Dünya müharibəsindən qayıtdıqdan sonra uzun onillər boyu Bakı Dövlət Universitetində ərəb dili və ədəbiyyatı kafedrasına rəhbərlik edib.

Ənvər Məmmədov 1923-cü il avqustun 15-də Bakı şəhərində müəllim ailəsində dünyaya gəlib. İkinci Dünya Müharibəsində iştirak edib, daha sonra Nürnberq prosesində beynəlxalq tribunalın Sovet İttifaqı hissəsinin tərkibində tərcümə bürosunun rəis müavini vəzifəsində çalışıb. O, həmçinin Xalq Komissarlığında və Xarici İşlər Nazirliyində müxtəlif vəzifələrdə işləyib. 1956-cı ilədək SSRİ Radio Komitəsinin baş redaksiyasında baş redaktor vəzifəsini tutub. 1959–1960-cı illərdə Ə.Məmmədov Sovet Məlumat Bürosunda baş redaktor, rəisin birinci müavini, 1961-ci ildən "Novosti" Mətbuat Agentliyi (APN) sədrinin birinci müavini olub. O, 1962-ci ildən 1985-ci ilədək SSRİ Dövlət Televiziya və Radio Komitəsi sədrinin birinci müavini vəzifəsini tutub.

Ənvər Məmmədov 1970-1980-cı illərdə respublikamızın bütün sahələrdə əldə etdiyi parlaq uğurların ümumittifaq televiziyası ilə işıqlandırılmasında fəal iştirak etməyi özünə borc bilirdi. Xalqımızın zəngin mədəniyyəti barədə Mərkəzi Televiziyada dəyərli telematerialların hazırlanmasına xüsusi həssaslıqla yanaşardı.

Sonda qeyd edək ki, görkəmli telejurnalist Ənvər Məmmədov Moskvada yüksək vəzifələrdə çalışdığı illərdə doğma Bakı ilə daim əlaqə saxlayar, həmvətənlərinin, bütövlükdə xalqımızın uğurlarına hədsiz dərəcədə sevinərdi. Xəzəri xüsusilə çox sevirdi. Ruhu şad olsun!

***Məsaim ABDULLAYEV***
***XQ***

# ANİMAFİLM altıncı dəfə görüşümüzə gəlib

**Azərbaycan Animasiya Assosiasiyası və "PERİ FİLM" MMC-nin təşkilatçılığı, Mədəniyyət Nazirliyi və Kino Agentliyinin dəstəyi ilə uşaqlar və böyüklər üçün nəzərdə tutulmuş ənənəvi 6-cı ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı öz işinə başlayıb. Sentyabrın 6-da Nizami Kino Mərkəzində festivalın açılışına həsr olunmuş tədbir keçirilib.**

Açılış mərasimində iştirak edən mədəniyyət nazirinin müavini Səadət Yusifova çıxış edərək animasiya filmlərinin cəmiyyətdəki rolundan danışdı. Bildirdi ki, bu sahənin inkişaf etdirilməsi və gələcək nəsillərə çatdırılması çox vacibdir: "Hər kəsin uşaqlıq xatirəsi olan bir animasiya filmi var. Animasiya filminin adı gələndə və ya ona baxmaq imkanı olanda böyük nəsil sanki öz keçmişinə qayıdır. Animasiya sahəsinin digər özəlliyi ondan ibarətdir ki, ən kiçik yaşlı uşağı və ən böyük yaşlı insanı bir araya gətirə bilir. Bu baxımdan animasiyanın cəmiyyətdə rolu vacibdir. Bugünkü festivala ümumilikdə 46 ölkədən 174 film daxil olub. Hər il olduğu kimi, bu il də tamaşaçılar dünyanın müxtəlif ölkələrindən təqdim edilən onlarla müasir animasiya filmi ilə tanış olmaqla yanaşı, bu sahənin peşəkarları ilə fikir mübadiləsi apararaq, eləcə də müxtəlif ustad dərslərində iştirak etmək hüququ qazanıblar".

Sonra müsabiqədənkənar proqrama uyğun olaraq "Qadınların qadınlar üçün çəkdiyi filmlər" adlı animasiyalar təqdim olundu. Tədbirdə İranda etiraz aksiyaları zamanı təhlükəsizlik qüvvələri tərəfindən qətlə yetirilmiş Azərbaycan türkü Hədis Nəcəfi haqqında çəkilmiş "Hədis" filmi, müsəlman aləmində demokratik yolla seçilmiş ilk qadın millət vəkili Pərixanım Sofiyeva haqqında gürcü filmi də nümayiş etdirildi.

Daha sonra Beynəlxalq əməkdaşlıq şöbəsinin rəhbəri Alberto Karandinski və festivalın xüsusi qonağı "Oskar" mükafatçısı niderlandlı rejissor Mixael Dudok de Wit VI ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı haqqında fikirlərini bölüşərək burada iştiraklarından məmnunluqlarını bildirdilər.

Sonda niderlandlı rejissor Mixael Dudok de Witin "Ata və qız" filmi nümayiş olundu.

"Qadın hüquqları" adlı animasiya festivalı müsabiqədənkənar, müsabiqə və peşəkarlar adlı proqramlardan ibarətdir.

Müsabiqədənkənar proqramda tematik nümayişlərin – festivalın mövzusuna uyğun filmlərin və retrospektivlərin – dünyaca məşhur animasiya müəlliflərinin əsərlərinin nümayişləri nəzərdə tutulur. Festivalın növbəti günlərində isə bu proqrama daxil olan Yaponiyanın "Ghibli" studiyasının "Oscar" mükafatına namizəd "Qırmızı tısbağa" ("The Red Turtle") və "Oscar" mükafatı qazanmış "Ruhlarla sovrulanlar" ("Spirited Away") tammetrajlı filmləri, eləcə də mükafata layiq görülmüş Hindistan animasiya filmləri nümayiş etdiriləcək.

Münsiflər heyəti 46 ölkədən daxil olmuş 174 film arasından müsabiqəyə 13 ölkədən 39 film qəbul edib. Bu filmlər 2 beynəlxalq və 2 yerli kateqoriyalar üzrə yarışacaq. Seçilmiş filmlər beynəlxalq münsiflər və uşaq tamaşaçıları tərəfindən qiymətləndiriləcək.

Peşəkarlar üçün nəzərdə tutulmuş proqramda isə yerli animasiya film layihələri təqdim olunacaq, beynəlxalq münsiflər heyəti, eləcə də xüsusi qonaqlarla görüşlər, masterklaslar və vörkşoplar təşkil ediləcək. Proqram çərçivəsində "Oscar" mükafatı laureatlı rejissor Maykl Dudok de Vit-in, kanadalı animator Matthe Mattheu Lyon-un masterklasları təşkil olunacaq. Gürcüstanlı rejissor Ana Chubinidze və hindistanlı Tehzeeb Khurana isə uşaqlar üçün animasiya vörkşopları keçirəcəklər.




İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyinin dəstəyi ilə "Animasiya filmləri vasitəsilə qadın haqları" adlı vörkşop və maliyyə proqramı da təşkil olunacaq. Layihədə seçilmiş 5 qadın rejissor üçün avropalı mentorlar - isveçrəli rejissor İsabelle Favez və fransalı prodüser Olivier Catherin tərəfindən təlimlər və fərdi görüşlər təşkil olunacaq.

Azərbaycan kinosunun 125 və Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının yaradılmasının 100 illiyi münasibətilə "Klassik Azərbaycan animasiya filmləri" tədbirində milli animasiyamızın inciləri olan filmlərin nümayişi keçiriləcək. Qeyd edək ki,müsabiqə qaliblərinin seçimi 6 xarici mütəxəssisin də daxil olduğu beynəlxalq münsiflər heyəti tərəfindən həyata keçiriləcək.

ANİMAFİLM festivalı Azərbaycanın ilk və tək animasiya festivalıdır. Festival uşaq və gəncləri, animasiya rejissorlarını və studiyaları bir araya gətirərək onları beynəlxalq təcrübə ilə tanış edir, onları peşəkar yerli və xarici animasiya ustaları ilə görüşdürüb yüzlərlə animasiya filmləri nümayiş etdirir, ustad dərsləri, konfranslar, konsertlər, tamaşalar və sərgilər keçirir.

Qeyd edək ki, festival çərçivəsində 13 ölkədən 39 filmin nümayiş olunacağı, "təxminən" 20 tədbir keçiriləcəyi və 60-dan çox animasiya filminin nümayiş olunacağı gözlənilir. Bu il festivaldan əldə olunacaq bütün gəlirlər qadın rejissorlarımıza dəstək məqsədilə ianə ediləcək.

***Fidan HÜQUQQIZI,***
***Elşən AĞALAROV (foto)***
***XQ***

TƏKRAR

# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

## Ağsu şəhəri,1176 şagird yerlik 2 nömrəli tam orta məktəbin binasının bərpa-gücləndirilməsi və əsaslı təmiri işlərinin satın alınması ilə bağlı

## AÇIQ TENDER ELAN EDİR

Açıq tender iştirakçılarına təklif olunur ki, öz təkliflərini imzalanıb möhürlənmiş ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

-iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi və təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək lazımdır.

Əlaqələndirici şəxs – Z.Quliyev.

Ünvan- Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi küçəsi 18.

Telefon- (+99412) 465 -73- 48 (134).

Maraqlananlar açıq tender prosedurunun əsas şərtlər toplusunu 2000,0 (iki min) manat məbləğdə iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər. İştirak haqqı heç bir halda geri qaytarılmır.

Bankın adı - "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı

Kod - 805603
VÖEN - 9900001881
M/h - AZ03NABZ01350100000000002944
S.W.I.F.T. İBAZAZ 2X
H/h - AZ88IBAZ38030019441856517211
VÖEN - 1500016711

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. 2023-cü il avqustun 28-dən sonra alınmış arayış qəbul ediləcəkdir);
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, onda notarial təsdiq edilməsi mütləqdir);
- iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (2023-cü il avqustun 28-dən sonra alınmış arayış təqdim edilməlidir);
- iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;
- iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;
- tender təklifini və satınalma müqaviləsini imzalamaq salahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);
- iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi oqranı və ya müvafiq kommerisya məhkəməsi tərəfindən təqdim olunmuş arayış. 2023-cü il avqustun 28-dən sonra alınmış arayış təqdim edilməlidir);
- kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);
- iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN Xidmət" Mərkəzlərindən 2023-cü il avqustun 28-dən sonra alınmış arayış qəbul ediləcəkdir);
- tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiqləyən sənədlər;
- iddiaçı tərəfindən doldurulmuş tenderin əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (əlavə 1) təqdim olunması məcburidir. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması barədə məlumatlar və müvafiq sertifikatlar əlavə edilməlidir. Müvafiq məlumatlar tələb olunan təsdiqedici sənədlər əlavə olunmaqla təqdim edilməlidir);
- iddiaçı baş podratçı kimi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (oxşar işlərə dair son 2 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin əlavə 1-nə uyğun);
- iddiaçının maddi -texniki bazası (sifarişi yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin əlavə 1-nə uyğun);
- sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilində tərcümə edilməlidir);
- iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 (otuz) bank günü çox olmalıdır).

İddiaçılar tenderlə bağlı sualları satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda qeyd olunan sənədləri 3 oktyabr 2023-cü il saat 15.00-a, tender təklifi və tender təklifinin bank təminatını isə 11 oktyabr 2023-cü il saat 11.00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər.

İddiaçıların təklifləri 12 oktyabr 2023-cü il saat 15.00-da Elm və Təhsil Nazirliyinin Təsrüffathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Erməni futbolçular azadlığa buraxıldı

**Xəbər verildiyi kimi, Azərbaycanın Dövlət Bayrağı barədə təhqiredici hərəkətlər etmiş 3 erməniəsilli futbolçu avqustun 28-də Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Laçın sərhəd-keçid məntəqəsində saxlanılıb.**

Azərbaycan dövlətinin humanist dəyərlərə sadiqliyinin nümunəsi olaraq barələrində cinayət təqibinə xitam verilərək cinayət məsuliyyətindən azad edilib və İnzibati Xətalar Məcəlləsinin 388-1-ci maddəsi ilə (İnternet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi) başlanmış icraat üzrə onların hər üçü məhkəmənin qərarı ilə 10 gün müddətinə inzibati qaydada həbs olunub.

Məlumata görə, bu gün həmin şəxslərin tənbeh müddəti başa çatdığından azad olunublar və onların Laçın sərhəd-keçid məntəqəsindən Ermənistana keçmələri təmin edilib.

Azad olunan şəxslər onlara göstərilən humanizmə görə Azərbaycan dövlətinə təşəkkür edərək, həbsdə olduqları müddətdə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarının tam təmin olunduğunu, saxlanma şəraiti və göstərilən münasibətdən razı olduqlarını, hər hansı şikayətlərinin olmadıqlarını bildiriblər.

***XQ***

# Səhmdar cəmiyyətin nizamnamə kapitalının azaldılması haqqında BİLDİRİŞ

Bakı şəhəri, Nizami rayonu, Keşlə qəsəbəsi, 1-ci köndələn küçəsi 21 nömrəli ünvanda yerləşən "European Tobacco-Baku" ASC-nin ("European Tobacco-Baku" ASC), 2023-cü il sentyabrın 2-də keçirilmiş ümumi yığıncağında nizamnamə kapitalının azaldılması barədə qərar qəbul edilmişdir.

Cəmiyyətin nizamnamə kapitalı hər bir səhmin nominal dəyərinin azaldılması yolu ilə, 44 635 220 (qırx dörd milyon altı yüz otuz beş min manat) manatdan azaldılaraq, 223 176 (iki yüz iyirmi üç min yüz yetmiş altı manat) manat olmuşdur.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 105.2. maddəsinə əsasən səhmdar cəmiyyətinin nizamnamə kapitalının azaldılması haqqında səhmdarların ümumi yığıncağının qərarı qəbul edildiyi gündən on beş təqvim günü müddətində cəmiyyət kreditorlara bu barədə yazılı məlumat verməlidir. Cəmiyyətin kreditorları məlumatı aldıqdan sonra otuz təqvim günü ərzində cəmiyyətin müvafiq öhdəliklərinin vaxtından əvvəl icrasını və ya onlara xitam verilməsini, eyni zamanda çəkdikləri zərərin ödənilməsini tələb edə bilərlər.

Kreditorların yazılı tələbləri Bakı şəhəri, Nizami rayonu, Keşlə qəsəbəsi, 1-ci köndələn küçəsi 21 nömrəli ünvanda qəbul olunur.

***"European Tobacco-Baku" ASC-nin idarə heyəti***

TƏKRAR

# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

## Ağcabədi rayonunun, Q.Əliyev adına 528 şagird yerlik Hindarx kənd 3 nömrəli ümumi orta məktəb binasının tikintisi işlərinin satın alınması üçün

## AÇIQ TENDER ELAN EDİR

Açıq tender iştirakçılarına təklif olunur ki, öz təkliflərini imzalanıb möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

– iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi və təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək lazımdır:

Əlaqələndirici şəxs – Z.Quliyev.

Ünvan – Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi küçəsi 18.

Tel: (+99412) 465 73 48 (134).

Maraqlananlar açıq tender prosedurunun əsas şərtlər toplusunu 2000,0 (iki min) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər. İştirak haqqı heç bir halda geri qaytarılmır.

Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı

Kod – 805603
VÖEN – 9900001881
M/h – AZ03NABZ01350100000000002944
S.W.I.F.T. İBAZAZ 2X
H/h – AZ88IBAZ38030019441856517211
VÖEN – 1500016711

İddiaçılar açıq tender prosedurunda iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir.) Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (01.09.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);
- iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (01.09.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);
- iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;
- iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;
- tender təklifini və satınalma müqaviləsini imzalamaq salahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);
- iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi oqranı, probasiya şöbəsi və ya müvafiq kommerisya məhkəməsi tərəfindən təqdim olunmuş arayış) (01.09.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);
- kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);
- iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 01.09.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);
- tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;
- iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi və idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin əlavə 1-nə uyğun);
- iddiaçı inşa etdiyi analoji tikililər barədə "Tikinti obyektinin istismarına icazə" sənədin surətini və ya inşasını davam etdirdiyi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (baş podratçı kimi analoji işlərə dair son 2 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin əlavə 1-nə uyğun);
- oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;
- iddiaçının maddi -texniki bazası (sifarişin yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin əlavə 1-nə uyğun);
- sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilində tərcümə edilməlidir).
- iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 60 (altmış) bank günü);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün yuxarıda qeyd olunan sənədləri 6 oktyabr 2023-cü il saat 12.00-a, tender təklifi və tender təklifinin bank təminatını isə 16 oktyabr 2023-cü il saat 12.00-a qədər yuxarıda göstərilən ünvana təqdim etməlidirlər.

İddiaçıların təklifləri 17 oktyabr 2023-cü il saat 12.00-da Elm və Təhsil Nazirliyinin Təsrüffathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

TƏKRAR

# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

## Respublika üzrə bir sıra təhsil müəssisələrinin kommunal-kommunikasiya işlərinin satın alınması üçün

## AÇIQ TENDER ELAN EDİR

Açıq tender iştirakçılarına təklif olunur ki, öz təkliflərini imzalanıb möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

– iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi və təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək lazımdır:

Əlaqələndirici şəxs – Z.Quliyev.

Ünvan– Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi küçəsi 18.

Tel: (+99412) 465 73 48 (134).

Maraqlananlar açıq tender prosedurunun əsas şərtlər toplusunu 1500,0 (bir min beş yüz manat) məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər. İştirak haqqı heç bir halda geri qaytarılmır.

Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı

Kod – 805603
VÖEN – 9900001881
M/h – AZ03NABZ01350100000000002944
S.W.I.F.T. İBAZAZ 2X
H/h – AZ88IBAZ38030019441856517211
VÖEN – 1500016711

İddiaçılar açıq tender prosedurunda iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir.) Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (01.09.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);
- iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (01.09.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);
- iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;
- iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;
- tender təklifini və satınalma müqaviləsini imzalamaq salahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);
- iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi oqranı, probasiya şöbəsi və ya müvafiq kommerisya məhkəməsi tərəfindən təqdim olunmuş arayış) (01.09.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);
- kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);
- iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 01.09.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);
- tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;
- iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi və idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin əlavə 1-nə uyğun);
- iddiaçı inşa etdiyi analoji tikililər barədə "Tikinti obyektinin istismarına icazə" sənədin surətini və ya inşasını davam etdirdiyi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (baş podratçı kimi analoji işlərə dair son 2 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin əlavə 1-nə uyğun);
- oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;
- iddiaçının maddi -texniki bazası (sifarişin yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin əlavə 1-nə uyğun);
- sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilində tərcümə edilməlidir).
- iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 60 (altmış) bank günü);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün yuxarıda qeyd olunan sənədləri 6 oktyabr 2023-cü il saat 11.00-a, tender təklifi və tender təklifinin bank təminatını isə 16 oktyabr 2023-cü il saat 11.00-a qədər yuxarıda göstərilən ünvana təqdim etməlidirlər.

İddiaçıların təklifləri 17 oktyabr 2023-cü il saat 11.00-da Elm və Təhsil Nazirliyinin Təsrüffathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Xalq qəzeti

Xalqın qəzeti!

№ 193 (30309) 8 sentyabr 2023-cü il, cümə

veb-sayt: www.xalqqazeti.az


İdman xəbərləri

## Gəncə “MDB-nin idman paytaxtı” olacaq

**Gəncə şəhəri 2025-ci il üçün “MDB-nin idman paytaxtı” seçilib.**



Bu barədə qərar II MDB Oyunları çərçivəsində bu təşkilatın Bədən Tərbiyəsi və İdman Şurasının Minskdə keçirilmiş iclasında verilib.

Qeyd edək ki, 2025-ci ildə III MDB Oyunları Gəncə şəhərində təşkil ediləcək.

## İdmançımız Cəbəllütariqi fəth etdi



**Azərbaycan idmançısı Boris Nəcəfov Cəbəllütariq boğazını üzərək keçib.**

Atlet ümumilikdə 16,2 kilometr məsafəni qət edib.

Qeyd edək ki, B.Nəcəfovun iştirak etdiyi üzmə yarışı İspaniyanın cənub nöqtəsindən – Tarifa şəhərindən başlayır və Afrikada – Mərakeşdə başa çatır.

## Avropa çempionatında 3 medal

**Azərbaycan cüdoçuları Niderlandın Haaqa şəhərində gənclər arasında keçirilən Avropa çempionatına uğurla start veriblər.**




Yarışın ilk günündə milli komandamızın 7 üzvü medallar uğrunda mübarizə aparıb.

Oğlanlar arasında Nizami İmranov (60 kq) bütün rəqiblərini məğlub edərək qızıl medal qazanıb. Aydın Rzayev (66 kq) gümüş, Aydan Vəliyeva (52 kq) bürünc medala sahib olublar.

*Leyla SABİRQIZI*
*XQ*

Texnologiya yenilikləri




## Süni intellekt “müğənni”dir

***“Warner Music” şirkəti süni intellektli (Aİ) “pop müğənni”si ilə albom müqaviləsi imzalayıb. Şirkət həm də “İnstaqram” fenomeni olan “Noonouri” ləqəbli süni zəkanın “Dominoes” adlı mahnısının klipini yayımlayıb. Beləliklə, “Noonouri” albom müqaviləsi bağlayan ilk “Aİ müğənnisi” kimi tarixə düşüb.***

“Noonouri”nin səsi süni intellekt tərəfindən yaradılıb və bir az xırıltılıdır. Ancaq qulağı yormur və izləyicilərinə xoş təsir bağışlayır. Həmçinin onun mahnısı üzərində işləyən musiqiçilər burada da qonorar və nəşr payları alacaqlar.

Qeyd edək ki, “Noonouri” ilk dəfə 18 yaşında Nyu-York moda həftəsində tamaşaçı qarşısına çıxıb. Onun “İnstaqram”da 400 mindən çox izləyicisi var və “Dominoes”ə 52 mindən çox baxış olub. Süni intellektli “pop ulduzu”nun ildə təxminən, 2,6 milyon dollar qazandığı iddia edilir.

*Əfsanə ƏHƏDLİ*
*XQ*

## İlk “Günəş” yük maşını

***İsveçin “Scania” şirkəti dünyanın Günəş enerjisi ilə işləyən ilk unikal yük maşını modelini təqdim edib. Hazırda yük avtomobilləri İsveçdə ictimai yollarda sınaqdan keçirilir.***



Hibrid yük maşını 560 at gücündə mühərrikə malikdir və elektriklə hərəkətini təmin edən yüngül Günəş panelləri ilə örtülmüşdür. Panellərin tərkibində peroksit adlanan minerallardan istifadə edilmişdir və bu da adi batareyalardan iki dəfə çox enerji istehsal edir. Şirkət iddia edir ki, bu panellər tərəfindən istehsal olunan günəş enerjisi ilə İsveçdə 5000 kilometrə qədər məsafəni, İspaniya kimi günəşli ölkələrdə isə iki dəfə artıq yol qət etmək mümkündür.

Qeyd edək ki, bu layihə iqlimə az təsir göstərən günəş enerjisi ilə işləyən yük maşınlarının yaradılmasına yönəlmiş tədqiqatların bir hissəsidir.

*Aytən NƏCƏFOVA*
*XQ*

Sosial şəbəkələrdən seçmələr

## Arı ömrü – qızıl həyat düsturu

**“Facebook”da Qismət Şıxlı adlı bir nəfərin aşağıdakı paylaşımı diqqətimizi cəlb etdi. Orada yazılır:**

*“Arılar 40 gündən az yaşayırlar,*
*ən azı, 1000 çiçəyi ziyarət edirlər,*
*Və bir çay qaşığı bal verirlər.*
*Bizim üçün sadəcə 1 çay qaşığı bal,*
*Arı üçün isə bütöv bir həyat.*
*Təşəkkürlər, arılar!*




Hörmətli oxucu, fransızlar deyirlər ki, “se lya vi”, yəni, həyat belədir. Bu dünyada hər bir canlı öz missiyasını yerinə yetirir. Düşünək, bu günə şükür edək, sabaha ümidlə baxaq!

Hər halda həyatın ilk baxışda sadə görünən, lakin dərk olunması heç də asan olmayan əbədi fəlsəfəsi barədə düşünməyə dəyər.

*Təqdim etdi: M.HACIXANLI*
*XQ*

Mədəniyyət

## “Qarabağnamə” Bakı səhnəsində




**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı yeni teatr mövsümünü sentyabrın 15-də görkəmli yazıçı-dramaturq İlyas Əfəndiyevin “Hökmdar və qızı” pyesi əsasında hazırlanmış “Qarabağnamə” tamaşası ilə açacaq.**

Teatrdan bildirilib ki, tamaşanın quruluşçu rejissoru Xalq artisti Mərahim Fərzəlibəyov, quruluşçu rəssamı İsmayıl Məmmədovdur.

Səhnə əsəri XVIII əsrdə Qarabağ xanlığının mərkəzi olan Şuşada baş vermiş tarixi hadisələrdən və Qarabağ hökmdarı İbrahim xanın həyatından bəhs edir.

Xatırladaq ki, o ağır dövrdə xanlıqlara bölünmüş Azərbaycana yiyələnməyə can atan Rusiya və İranla siyasi əlaqələri və dostluq münasibətlərini bərqərar etməyə çalışan Qarabağ xanı erməni fitnəkarlığının qurbanı olur.

*XQ*

Maraq dünyamız

## Kosmos başqa aləmdir

**Kosmosda baş verən qeyri-adi hadisələr Yerdən kənarda mövcud olan inanılmaz dünya haqqında düşünməyə vadar edir.**



♦ Günəş şüası Yerə cəmi 8 dəqiqəyə çatır, lakin bir fotonun (elementar zərrəcik) ulduzun nüvəsindən səthinə keçməsi yüz minlərlə il çəkir.

♦ Kosmosda səslər yoxdur, çünki səs dalğaların keçə biləcəyi hava yoxdur.

♦ HD189733b planetində davamlı şüşə yağış yağır.

♦ Yerin ətrafında 8 mindən çox kosmik tullantı fırlanır. Onlar kosmik gəmilər üçün təhlükəlidir.

♦ İnsan kosmosda ağlasa, göz yaşları gözündə və üzündə qalar. Üstəlik, astronavtlar ağlamağa davam etsə, maye gözün qarşısında qabarcığa çevrilə bilər.

## “Oskar”ın təqdimatı gələn ilə qalıb

**ABŞ Kino Akademiyası fəxri “Oskar” mükafatlarının təqdimat mərasimini təxirə salıb. “The Associated Press” agentliyi xəbər verir ki, ssenaristlər və aktyorların tətili səbəbindən mərasim 2024-cü ilə keçirilib.**

Fəxri mükafatların qaliblərinin aktrisa Ancela Basset, rejissor, ssenarist və prodüser Mel Bruks, redaktor Kerol Littleton və Sundance İnstitutundan Mişel Satter olacağı bildirilib.




Qeyd edək ki, mükafatları təqdim edən qurumun məlumatına əsasən, bu proseslə bağlı mümkün dəyişikliklər olduğu təqdirdə mediaya ümumi məlumat veriləcək.

*XQ*

Sağlamlıq

## Uzun ömrün yolu bağırsaqdan keçir

**Yaponiyanın Keyo universiteti və ABŞ Broud institutunun alimləri yeni elmi araşdırmalar nəticəsində bu qənaətə gəliblər ki, 100 yaşa kimi yaşayan insanları birləşdirən ümumi bir səbəb var. Bu da onların bağırsaq mikrobiomunun fərqli tərkibdə olmasıdır.**



Tədqiqatçılar bildiriblər ki, uzunömürlülər 70 yaşa qədər yaşayanlardan daha az infeksion xəstəliklər keçiriblər.

Alimlər 160 yapon uzunömürlüsünün bağırsaq mikrobiotasının tərkibini öyrəniblər. Onların arasında orta yaş həddi 105 olub.

Məlum olub ki, 21–50 yaşlı insanlarla müqayisədə 80–85 yaşlı uzunömürlülərin bağırsağında daha çox sayda və növdə bakteriyalar var ki, onlar öd turşuları hasil edir.

Bu maddə bağırsağı patogen bakteriyalardan və iltihabdan qoruyur, eləcə də, immun sistemini tənzimləyir.

*Z.HÜSEYNLİ*
*XQ*

Proqnoz



## Bəzi yerlərdə güclü leysan yağacaq

***Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək.***

Havanın temperaturu gecə 20-23° isti, gündüz 25-29° isti olacaq. Atmosfer təzyiqi 760 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 75-85 faiz, gündüz 50-55 faiz olacaq.

Bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 18-22° isti, gündüz 23-28° isti, dağlarda gecə 8-13° isti, gündüz 13-18° isti olacaq.

*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikasının Xalq artisti, professor Tofiq Bakıxanov “Xalq qəzeti”nin əməkdaşı İttifaq Mirzəbəyliyə qardaşı

TEHRAN MÜƏLLİMİN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov

NİYAZ HACIYEVİN

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4909
SİFARİŞ 2274
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00